# RAMAZAN BAYRAMINIZ MÜBARƏK!

Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 122 (8145) ÇƏRŞƏNBƏ, 5 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Milli-mənəvi dəyərlər işığında

Xalqların özünəməxsusluğunu şərtləndirən amillər sırasında onun milli-mənəvi irsi mühüm əhəmiyyət kəsb edir. Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan mənəvi-əxlaqi dəyərlər hər bir toplumun milliliyinin, kamillik səviyyəsinin təcəssümü, dünyada özünü təsdiq etməsi üçün ən mühüm amil hesab olunur. Təsadüfi deyil ki, milli kimliyi ifadə edən mənəvi dəyərlər xalqın ən zəngin sərvəti sayılır.

Təbii ki, hər bir xalq uzaq əsrlərə, minilliklərə istinad edən mənəvi keyfiyyətləri ilə fəxr edir. Çünki bu, onun qürur mənbəyi, fəxarət yeridir. Qədim adət-ənənələri ilə tarix boyu bəşər sivilizasiyasına mühüm töhfələr vermiş xalqımız hər zaman milli dəyərlərini, dünyaya nümunə olan yüksək əxlaqi keyfiyyətlərini qoruyub saxlamış, inkişaf etdirmişdir.

Böyük sosial və tarixi hadisə olan islam dini də ümumbəşəri mənəvi dəyərləri özündə ehtiva etdiyi, insanları sülhə, əmin-amanlığa, həmrəyliyə, kamilliyə, düzgünlüyə çağırdığı üçün xalqımızın mental baxışları ilə uzlaşaraq milli-mənəvi dəyərlərimizin mühüm tərkib hissələrindən birinə çevrilib.

Qeyd etmək lazımdır ki, din istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz bir hissəsini təşkil edib və insanlar tərəfindən doğru dərk edildiyi zaman bu dəyərlərin zəmanətçisinə çevrilib. Bu baxımdan dünyanın ən kamil dinlərindən olan islam da təkcə din kimi yayılmayıb. İslamın təlqin etdiyi dəyərlər əsrlər boyu istər Şərq, istərsə də Qərb mədəniyyətinə ideya-fəlsəfi baxımdan təsir göstərən mənəvi qüvvə kimi aktual olub.

İslamdan qaynaqlanan bəşəri mənəvi dəyərlər xalqımızın keçdiyi tarixi yolda, Azərbaycan dövlətçiliyinin yaranmasında, yaşamasında və möhkəmlənməsində böyük rol oynayıb. İstər cəmiyyətin öz inkişafını nəzərdə tutan hürufilik kimi təlimlər, istərsə də Azərbaycanın siyasi yüksəlişini təmin etmiş qızılbaş hərəkatı kimi cərəyanlar məhz islamdan qaynaqlanıb, ondan ilham alıb. İslam mədəniyyəti xalqımızın mədəniyyəti ilə bir vəhdət təşkil edib. İslam fəlsəfəsi klassik və orta əsrlər ədəbiyyatımızın əsas istiqamətverici prinsiplərindən olub. XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində ölkəmizdə milli düşüncəli insanlar tərəfindən əsası qoyulan maarifçilik hərəkatının qayələrindən birini həm də islam ideyaları təşkil edib. Öz azadlığımız uğrunda apardığımız mübarizələrdə məhz islam amili mühüm rol oynamışdır. Nəticə etibarilə milli düşüncənin məhsulu olan Azərbaycan Xalq Cümhuriyyəti də müasirlik və türkçülüyü əsas götürməklə yanaşı, islam dəyərlərinə önəm verirdi.

Məlumdur ki, sovet hakimiyyətinin mövcud olduğu 70 il ərzində bütün dinlər, o cümlədən islam dini yasaq edilmişdi. Kommunist ideologiyasının mühüm tərkib hissəsi olan ateizm, Allahsızlıq təbliğatı həyata keçirilirdi.

*Ardı 5-ci səh.*

## İsveçin Kralı Əlahəzrət XVI Karl Qustava

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təbrikində deyilir: "Əziz həmvətənlər, Sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm. Bu mənəvi yenilənmə və təmizlənmə bayramında sizə xoşbəxtlik və rifah, saf niyyətlər və xeyirxah işlər arzu edirəm. Allah sizin bütün oruclarınızı və dualarınızı qəbul etsin, Vətənimizə sülh, xoşbəxtlik, xoş günlər və firavanlıq bəxş etsin".



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq hissi duyuram.

Dünyanın bu çətin dönəmində beynəlxalq əməkdaşlığa əvvəlkindən daha çox ehtiyac duyulur. "Biz - xalqlar" şüarı altında xoş məramla bir araya gələrək sülhü, davamlı tərəqqini və insan hüquqlarını dəstəklədikdə bütün dünya ölkələri bundan faydalanır.

Sizin bu milli bayramı qeyd etdiyiniz bir vaxtda mən Birləşmiş Millətlər Təşkilatının daha da möhkəmləndirilməsi və daha gözəl gələcək naminə səylərimizin gücləndirilməsi istiqamətində ölkənizin fəal dəstəyinə arxalanıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Antonio QUTERREŞ,***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

---

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi, Azərbaycan Hökumətini və xalqını Maldiv Hökuməti və xalqı adından, həmçinin öz adımdan səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına daimi inkişaf və rifah arzu edirəm.

*Hörmətlə,*

***İbrahim Məhəmməd SOLİH,***
***Maldiv Respublikasının Prezidenti***

---

Zati-aliləri, cənab Prezident!

Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə cansağlığı, xoşbəxtlik, xalqınıza isə inkişaf, rifah arzu etməkdən şərəf və böyük məmnunluq hissi duyuram. Bu təbriklərə Cibuti Hökuməti və xalqı da qoşularaq Azərbaycan xalqına rəğbət və dostluq duyğularını ifadə edirlər.

Son illərdə ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq səviyyəsinin yüksəlməsindən qürur duyuruq. Şübhəsiz ki, ölkələrimiz arasında bu əhəmiyyətli yaxınlaşma digər amillərlə yanaşı, xalqlarımızın böyük oxşarlıqlarını xarakterizə edən məhsuldar zəmin üzərində qurulmuşdur.

Zati-aliləri, Sizi əmin edirəm ki, Cibuti Hökuməti və xalqı ölkələrimiz arasında münasibətləri möhkəmləndirmək üçün hər zaman və hər cür dəstək verməyə hazırdırlar.

Cənab Prezident, bir daha Sizə və bütün Azərbaycan xalqına ən xoş arzularımı çatdırır, milli bayramınız münasibətilə ən səmimi qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***İsmail Ömər QELLEH,***
***Cibuti Respublikasının Prezidenti***

## Azərbaycan uğurları ilə informasiya müharibəsində qalib gəlir

*İlham ƏLİYEV:* "Biz öz siyasətimizlə bütün yalanları darmadağın edirik"

Azərbaycanın nailiyyətləri yalnız sürətli iqtisadi inkişafla yekunlaşmır. Respublikamız demokratik dəyərlərin mənimsənilməsi sahəsində də mühüm uğurlara imza atıb. Təsadüfi deyil ki, bu gün Azərbaycan hüquqi və demokratik dövlət ideyasının reallaşdığı, insan hüquq və azadlıqlarının etibarlı təmin olunduğu, şəxsiyyət, vətəndaş münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, vətəndaş cəmiyyəti institutlarının geniş təşəkkül tapdığı, müxtəlif milli-dini sivilizasiyaların qovuşduğu tolerant ölkə kimi tanınır.

Bu sahələrdə həyata keçirilən səmərəli tədbirlər Azərbaycanın demokratik prinsiplərə, insan hüquqları dəyərlərinə böyük önəm verdiyini nümayiş etdirir. Ölkəmiz beynəlxalq miqyasda da möhtəşəm uğurlara imza atmaqdadır. İndi Azərbaycan tək regionda deyil, qlobal xarakterli məsələlərdə də söz sahibidir. Kosmosda özünün peyki olan ölkələrin sırasına qoşulan ölkəmiz həm də dünyada terrorçuluqla mübarizədə, beynəlxalq enerji təhlükəsizliyi məsələlərində öndə gedən dövlətlərdən biridir. Bunlar müasir və inkişaf edən, dünya birliyində öz yerini möhkəmləndirən Azərbaycanın reallıqlarıdır.

Başqa bir reallıq da odur ki, gənc müstəqil respublika kimi Azərbaycanın nailiyyətləri, inkişaf etməkdə olan dövlətlərin sırasında öncüllərdən olması, müstəqil siyasət yeridən ölkə kimi böyük nüfuz qazanması, hüquqi və demokratik inkişaf yolunda qazandığı uğurlar bir sıra Qərb siyasi dairələrində daim qısqanclıqla qarşılanır. Bunu indiyədək də ölkəmizə qarşı həyata keçirilməsi davam edən təzyiqlər, bəzi siyasi dairələrin qarayaxma kampaniyaları da göstərir. Azərbaycanın demokratik imicinə zərbə vurmaq niyyəti ilə xarici media orqanlarında sifarişli yazılar dərc edilir, telesüjetlər hazırlanır, müxtəlif siyasi güclərin təsiri altında olan qeyri-hökumət təşkilatları obyektivlikdən uzaq bəyanatlar verir, qərəzli çıxışlar edirlər.

Uğurlarımızdan qıcıqlanan bəzi xarici siyasi dairələr, xüsusən erməni lobbisi və onların təsiri altında olan riyakar siyasətçilər ölkəmizə qarşı apardıqları total informasiya müharibəsini genişləndiriblər. Bütün planları puç olan, ölkəmizə təzyiq edə bilməyən həmin dairələr tərəfindən mütəmadi olaraq Azərbaycanla bağlı yalan informasiyaları dövriyyəyə buraxır, nailiyyətlərimizə kölgə salmağa cəhd edirlər.

*Ardı 10-cu səh.*



## Prezident İlham Əliyev Bakıya şöhrət, bakılılara qürur bəxş edib

Müasir Bakı yaraşığı, gözəlliyi və Qərblə Şərqin sintezindən doğan bənzərsiz memarlıq nümunələri ilə dünyanın əksər paytaxtlarını ötüb keçib. Artıq bu, reallıqdır.

Əcnəbilərin özləri belə, Bakını çəkinmədən Milandan, Parisdən və dünyanın digər tanınmış şəhərlərindən üstün sayırlar. Bakıya aşiq olanların, onun üçün darıxan, onunla görüşə can atan turistlərin sayı bu gün on minlərlə, hətta yüz minlərlə ölçülür.

Bir çox beynəlxalq memarlıq müsabiqələrinin qalibi, istedadlı memar İlqar Əliyev təxminən 10-15 il əvvəl israrla deyirdi ki, Bakıda möhtəşəm parklar salınacaq, paytaxtın görkəmi büsbütün dəyişəcək. İnanmaq olmurdu, çünki o illərdə bir tikinti bumu var idi, sahibkarlar, əsasən, yaşayış binalarının tikintisinə güc verirdilər. Təsəvvürə də gəlməzdi ki, vaxt gələcək kimsə parkların salınmasına üstünlük verəcək. Bunu dövlət başçısı etdi. Onun tövsiyəsi ilə kiçik xiyabanların, böyük parkların salınması nəinki paytaxtda, bütün ölkədə vüsət aldı. Dənizkənarı bulvar Milli Parka çevrildi, ərazisi bir neçə dəfə artdı, paytaxtın bütün rayonlarında neçə-neçə kiçik və böyük xiyabanlar salındı. Bu gün Bakı doğrudan da dünyanın ən gözəl, rahat və təhlükəsiz şəhərlərindən biridir. Mayın 22-də yeni parkın açılışı isə nəinki Bakının, hətta dünya memarlığının tarixində baş verən unikal hadisəyə çevrildi.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak etmişlər.

*Ardı 2-ci səh.*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Laos xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaq istəyirəm.

Əminəm ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlər və əməkdaşlıq əlaqələri hər iki xalqın mənafeyi naminə bundan sonra da möhkəmlənəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Bounyanq VORAÇİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Ölkələrimiz arasındakı mehriban dostluq münasibətlərini yüksək qiymətləndirirəm. Ümidvaram ki, əməkdaşlığımız həm ikitərəfli, həm də beynəlxalq müstəvidə daha da inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı çatdırır, möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

*Vəssalamu aleykum va rahmatullahi va barakatuhu.*

***Hacı Həssənal BOLKİAH,***
***Bruneyin Sultanı***

---

Zati-aliləri!

Respublika Günü münasibətilə Sizi Gürcüstan hökuməti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı müstəqillik yolunda çoxlu çətinliklərdən keçdi. Bu gün Azərbaycan Respublikası inkişaf etmiş uğurlu dövlətdir və beynəlxalq arenada xüsusi yerə malikdir.

Gürcü və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətləri və səmərəli əməkdaşlıq uzun əsrlər boyu davam etməkdədir. Biz bu gün də dostluq əlaqələrini birlikdə möhkəmləndirməyə və uğurlu strateji tərəfdaşlığımızı inkişaf etdirməyə çalışırıq. Bu isə xalqlarımızın tərəqqisi və əmin-amanlığı üçün bir zəmindir. Azərbaycanın sabitliyi və inkişafı Gürcüstan üçün həm ikitərəfli, həm də regional əməkdaşlıq baxımından olduqca vacibdir.

Cənab Prezident, bir daha Sizə öz dərin ehtiramımı ifadə edir və qardaş Azərbaycan xalqına əmin-amanlıq, uğurlar diləyir və ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Mamuka BAXTADZE,***
***Gürcüstanın Baş naziri***

---

Zati-aliləri!

Dost ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə böyük məmnunluq hissi ilə ən xoş təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək Sizə cansağlığı və səadət, dost ölkənizə və onun xalqına davamlı tərəqqi və rifah arzulayıram.

Xahiş edirəm, zati-alinizə yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Nəvaf əl-Əhməd əl-Cabir əl-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

---

Zati-aliləri!

Allah Sizi qorusun!

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 101-ci ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan xoşhal olur və şərəf duyuram.

İzzət və Cəlal sahibi olan Allahdan zati-alinizə cansağlığı və uzun ömür, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf, rifah və ucalıq arzulayıram.

Allahın salamı, mərhəməti və bərəkəti üzərinizdə olsun!

*Hörmətlə,*

***Seyyid Mahmud ŞƏRİF,***
***Misir Parlamentinin Birinci vitse-spikeri,***
***Seyidlər İttifaqının sədri***

# Prezident İlham Əliyev Bakıya şöhrət, bakılılara qürur bəxş edib

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, dövlət başçısının birbaşa göstərişlərinə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən keçmiş “Sovetski” adlanan ərazidə abadlıq və yenidənqurma işlərinə 2013-cü ilin noyabr ayında start verilmişdi. O vaxtdan gərgin əməyin sayəsində reallaşmaqda davam edən bu layihə əsasında ərazidə unikal abadlıq işləri görülüb, müasir landşaft memarlığının incəliklərini özündə əks etdirə bilən nadir istirahət parkı salınıb.

Bakı dünyanın məşhur memarlarının təfəkkür və istedadından bəhrələnərək sakinlərinə və qonaqlara yeni və heyrətamiz memarlıq nümunələrini təqdim etməkdə davam edir. Mübaliğəsiz deyə bilərik ki, paytaxtla bağlı bütün ideyaların müəllifi Azərbaycan Prezidentinin özü, onun islahatçı ruhu və yorulmadan çalışmaq bacarığıdır.

Bu dəfə Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi yeni açılan Mərkəzi Park Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə unikal memarlıq ansamblı təqdim edə bilmişdir. Layihənin əsas məqsədi şəhərin simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət etməkdir.





*Fotolar Fərman BAĞIROV və Ağaəli MƏMMƏDOVUNDUR*

Amma burada mütləq keçmişə qayıtmaq, Bakı ilə bağlı bəzi faktları xatırlamaq vacibdir. Biz ölkənin baş şəhərinə, onun bugünkü simasına alışmışıq və hər şey bizə adi gəlir. “Sovetski” deyilən ərazinin keçmişi bəlkə də çoxlarının yadında deyil. Yerli-dibli unutduğumuz, xüsusən də gənc nəslin bilmədiyi ciddi məqamlar mövcuddur.

Köhnə Bakı neft istehsalı artdıqca sürətlə böyüyürdü. “Sovetski” adını daşıyan bu ərazidə isə ötən əsrin əvvəlində baş verən cinayətlərin sayı-hesabı yox idi. Müəyyən mənbələri vərəqləsək görəcəyik ki, Bakıda küçələrdə döyülənləri, talananları saymasaq, yalnız qətlə yetirilənlərin sayı ildə 500 nəfəri keçirdi. Neft istehsalı gücləndikcə dünyanın hər yerindən bu şəhərə iş adamları, fəhlələr axışırdı. Şəhərin milli tərkibi sürətlə dəyişirdi. Bakı varlandıqca, pullu adamların sayı artdıqca dünyanın hər yerindən buraya qatı cinayətkarlar da sel kimi axıb gəlirdi. Onlar öz dəstələrini yaradır, varlı adamları oğurlayıb pul qoparırdılar. Cinayətkar aləmin nüfuzlu nümayəndələri Bakıda “razborka”lar aparır və yeri gələndə heç kimdən çəkinmirdilər. Qoçular isə ayrı bir aləm idi. Azərbaycanlı “piştonçu”larla erməni “mauzerist”ləri arasında toqquşmaların sayı-hesabı olmazdı. Bu azmış kimi, bolşeviklərin quldur dəstələri də Bakıda at oynadırdı. Belə dəstələrdən birinə başçılıq edən Stalin kriminal Bakının cinayətkar aləmində ağalıq etmək üçün dəridən-qabıqdan çıxırdı. O, yeri gələndə quldur dəstəsinin üzvləri ilə polis geyimində limanda Rusiyaya yola düşən gəmiləri talan edib aradan çıxa bilirdi. Onun qazandığı pullar bolşeviklərin xəzinəsinə göndərilirdi.

Elə sovet hakimiyyəti illərində də, İkinci Dünya müharibəsindən sonra da hər kənddən gələn “Sovetski”dən keçib getməyə ürək etməzdi. Dar küçələr, birmərtəbəli evlər, tinlərdə ağalıq edən “qədeş”lər buranın ayrı qanunlarla idarə olunduğunu sübut edirdi.

Əmim İkinci Dünya müharibəsinin iştirakçısı kimi alverlə ailəsini dolandırardı. Alverçilərə qarşı sovet sistemi sərt olsa da, əmimə müharibə iştirakçısı olduğuna görə toxunmazdılar. Amma “Passaj” bazarına mal gətirəndə “Sovetski”nin “qədeş”ləri kürəklərinə kisə atıb sürücünü xamlamışdılar ki, İmanqulu kişinin kisələrini at dalımıza. Sürücü də elə bilmişdi ki, malı boşaldan fəhlələrdir. Əmim əməlli- başlı ziyana düşmüşdü.

Kəndimizdə Saatmirzə adında kişi var idi. Bir dəfə müharibədən sonra Bakıya gəlir. “Sovetski”dən keçəndə “qədeş”lər üstünə bıçaq çəkir ki, ciblərini boşalt. Saatmirzənin cibindən pul çıxmır, qeyzlənən “qədeş”lər pencəyini alırlar və görürlər ki, astarı yamaqlıdır. Direşirlər ki, ayaqqabını çıxar. Onların da altı yırtıq olur. Tutub Saatmirzənin qulağının dibindən çərtirlər ki, “qulağında sırğa elə, bundan sonra Bakıya gələndə əyin-başını dəyiş, cibinə də pul qoy”. Ondan sonra Saatmirzə ölənədək Bakıya gəlməyə ürək etmədi.

Buralarda adamı soymaq, cibini boşaltmaq, başındakı papağı “bu nə papaqdı, ələ, başına qoymusan?” - deyib dama atmaq qayda idi. Damda oturan “lotu”lar da papağı götürüb qaçardılar. Gəl, indi kiməsə sübut et ki, səni soydular, taladılar. Bütün bu dediklərimiz keçmişin uzaq xatirələridir.

Müasir Bakı artıq uzun illərdir ki, dünyanın ən gözəl, sakit və təhlükəsiz şəhəri titulunu qazanıb. “Sovetski”nin arxivə silinməsi isə Bakını bir paytaxt kimi kübar şəhərə çevirib. Artıq “Sovetski” adlı bir ərazi yoxdur. Əvəzində 20 hektarlıq sahəni əhatə edən Mərkəzi Park var. Onun 14 hektarında yaşıllıq salınıb, 2100-dən çox 19 növdə ağac və 137 mindən artıq gül və kol bitkiləri əkilib. Parkın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək əraziyə uyğun bitki və ağaclara üstünlük verilib. Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasında ilin bütün fəsilləri nəzərə alınıb. Parkda yaşıllıqları suvarmaq üçün müasir sistemlərə uyğun olaraq 6,5 kilometrdən çox sahədə damcılama üsulu tətbiq edilib. Bundan başqa, Mərkəzi Parkın ərazisində drenaj xətlər də çəkilib. Ümumilikdə Mərkəzi Parkın inşası ilə Füzuli meydanının ətraf ərazilərində Bakının “ağciyəri” hesab olunan yeni yaşıllıq zolağı salınıb. Bununla Prezident İlham Əliyevin “Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında” 2016-cı il 4 avqust tarixli, “Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında” 2016-cı il 5 avqust tarixli sərəncamlarının icrası olaraq “Təzəpir məscidi kompleksini ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işləri” layihəsinin II mərhələsi tam yekunlaşıb.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Milli Məclisin komitə iclaslarında

## “Məhkəmələr və hakimlər haqqında” qanuna yeni “Kommersiya məhkəmələri” adlı VIII-I fəsil əlavə olunur

İyunun 4-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Əli Hüseynli gündəliyə dörd məsələnin daxil olduğunu bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən bu yaxınlarda “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” fərman imzalanıb. Fərman məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasına rəvac verib və bu sahədə islahatların daha da dərinləşdirilməsini zəruri edib. Fərmanın vacib məqamlarından biri 3.1-ci maddə idi. Burada sahibkarlıq fəaliyyəti ilə əlaqədar işlər üzrə ixtisaslaşdırılmış məhkəmənin yaradılması ilə bağlı məsələ qoyulub. Məqsəd sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etməkdən ibarət idi. Müzakirəyə təqdim olunmuş layihələr məhz bu tövsiyələrin icrası ilə bağlıdır.

Sonra qanun layihələrinin mahiyyəti barədə məlumat verilib. Bildirilib ki, “Məhkəmələr və hakimlər haqqında” qanuna yeni “Kommersiya məhkəmələri” adlı VIII-I fəsil əlavə olunur. Burada Kommersiya məhkəməsi və onun səlahiyyətləri, Kommersiya məhkəməsinin təşkili, tərkibi, məhkəmə sədrinin, sədr müavininin səlahiyyətləri kimi məsələlər təsbit olunub. Əlavədə deyilir ki, Kommersiya məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işlərə baxır. Eyni zamanda, məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, qanunla ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir. Qeyd edilir ki, Kommersiya məhkəməsi Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə təşkil edilir. Kommersiya məhkəməsi sədrdən və hakimlərdən ibarətdir. Tərkibində 12 və daha çox hakim olan Kommersiya məhkəməsində sədr müavini vəzifəsi təsis edilir.

Qanuna edilən digər düzəlişlərə əsasən, 53 və 62-ci maddələrin birinci hissələrində “inzibati-iqtisadi kollegiyadan, cinayət kollegiyasından və hərbi kollegiyadan” sözləri “inzibati kollegiyadan, kommersiya kollegiyasından və cinayət kollegiyasından” sözləri ilə əvəz edilir. 61 və 77-ci maddələrin birinci hissələrində “və iqtisadi mübahisələrə” sözləri “mübahisələrə və kommersiya mübahisələrinə” sözləri ilə əvəz edilir. 78-ci maddənin üçüncü hissəsində “inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya” sözləri “inzibati kollegiya, kommersiya kollegiyası və cinayət kollegiyası” sözləri ilə əvəz olunur. Eyni zamanda, qanunun 83-cü maddəsinə edilən əlavəyə görə, Ali Məhkəmənin sədri aidiyyətə dair mübahisələrə baxılması üçün Ali Məhkəmənin müvafiq kollegiyalarının hakimlərindən ibarət qarışıq tərkibləri müəyyən edir.

Mülki Prosessual Məcəllədəki dəyişikliklərə dair bildirilib ki, sənədin 26-cı maddəsi yeni redaksiyada verilib. Bu maddədə mübahisələrin kommersiya məhkəmələrinə aidiyyəti ilə bağlı məsələlər təsbit edilir. Qeyd olunur ki, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələrə (kommersiya mübahisələrinə) dair işlərə mülki məhkəmə icraatı qaydasında Kommersiya məhkəmələri baxır. Kommersiya məhkəmələri, habelə məcəllənin 40-5-ci fəslində nəzərdə tutulmuş işlərə, sahibkarlıq fəaliyyəti ilə əlaqədar olduqda məcəllənin 35 və 40-2-ci fəsillərində nəzərdə tutulmuş işlərə, qanunla onların səlahiyyətlərinə aid edilən digər işlərə də baxırlar.

İclasda yuxarıda göstərilən sənədlərdə, həmçinin Cinayət-Prosessual Məcəlləsində və İnzibati Prosessual Məcəlləsində təklif olunan uyğunlaşdırma xarakterli dəyişikliklər də nəzərdən keçirilib.

Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

## Tarixdə qalan büdcə

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iyunun 4-də keçirilən iclasında “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsi (ikinci oxunuş), “Aqrar sığorta haqqında” qanun layihəsi (ikinci oxunuş) və “Dövlət rüsumu haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə olunub.

Komitənin sədri Ziyad Səmədzadə “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsinin (ikinci oxunuş) müzakirəsi zamanı 2018-ci ilin büdcəsini tarixdə qalan büdcə adlandırdı.

Hesabata əsasən 2018-ci ildə dövlət büdcəsinin gəlirləri 22 milyard 149 milyon manat proqnoza qarşı 22 milyard 508,9 milyon manat və ya 101,6 faiz təşkil etmişdir. Bu da 2017-ci illə müqayisədə 36,3 faiz çoxdur. Xərclərə gəldikdə, 2018-ci ildə ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafının prioritet istiqamətləri, o cümlədən təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və infrastruktur layihələrinin reallaşdırılması, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi, dövlətin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi, kənd təsərrüfatının stimullaşdırılması, dövlət borcu və beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi və digər zəruri dövlət tədbirlərinin icrası üçün maliyyə təminatının yaradılması diqqətdə saxlanılıb.

Ötən il dövlət büdcəsinin xərcləri 23 milyard 100 milyon manat proqnoza qarşı 22 milyard 731,6 milyon manat və ya 98,4 faiz icra edilib. 2018-ci il dövlət büdcəsi xərclərinin 50,8 faizi cari xərclərə (2017-ci illə müqayisədə 5,9 faiz çox), 39,4 faizi əsaslı xərclərə (2017-ci illə müqayisədə 1,7 dəfə çox), 9,8 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib. Ötən il büdcə xərclərinin 31,7 faizi sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilib ki, bu da 2017-ci ildə olduğundan 7,6 faiz çoxdur.

Müzakirələrdə çıxış edən deputatlar Vahid Əhmədov, Əli Məsimli, Xanhüseyn Kazımlı, Aydın Hüseynov fikir və təkliflərini səsləndirdilər. Sənəd Milli Məclisin növbədənkənar iclasına tövsiyə edildi.

Sonra “Aqrar sığorta haqqında” qanun layihəsi (ikinci oxunuş) müzakirəyə çıxarıldı. Komitə sədri Ziyad Səmədzadə bildirdi ki, sənədin birinci oxunuşu zamanı deputatların irəli sürdükləri bütün təkliflər nəzərə alınıb və layihəyə əlavələr edilib. İclasda həmçinin “Sığorta fəaliyyəti haqqında”, “Dövlət rüsumu haqqında” və “Təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə edilən dəyişikliklər də komitə üzvləri tərəfindən müsbət qarşılandı. Müzakirələrdən sonra sənədlər növbədənkənar iclasa tövsiyə olundu.

## Aqrar sığorta könüllü olacaq

Milli Məclisin növbədənkənar iclasında “Aqrar sığorta haqqında” yeni qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılacaq. Sənəd dünən parlamentin Aqrar siyasət komitəsinin iclasında geniş müzakirə olunub.

Komitənin sədri Eldar İbrahimov bildirib ki, yeni qanun layihəsi aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. 4 fəsil, 21 maddədən ibarət olan sənədin üzərində müvafiq strukturlarla birlikdə təkmilləşdirmələr aparılıb. Qanun layihəsinin birinci oxunuşu zamanı deputatlar tərəfindən bir sıra təkliflər irəli sürülüb. Həmin təkliflər də ikinci oxunuşda nəzərə alınıb.

Layihənin mütərəqqi olduğunu deyən Eldar İbrahimov bildirdi ki, qanunun qəbulu Azərbaycan iqtisadiyyatının, kənd təsərrüfatının, sahibkarlığın inkişafına müsbət təsir göstərəcək. Sənədin qəbulu həm ölkə iqtisadiyyatı, həm iş adamları, həm də fermerlər üçün uğurlu olacaq. Çünki iş adamları zərərə uğrayacaqları halda, özlərinin hüquqi təminatını əldə etmiş olacaqlar. Özü də aqrar sığorta sahibkarlar, fermerlər üçün könüllü əsaslarla həyata keçiriləcək.

Sonra iclasda “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında”, “Dövlət rüsumu haqqında”, “Baytarlıq haqqında”, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” və “Lisenziyalar və icazələr haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı.

Qeyd olundu ki, “Baytarlıq haqqında” və “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” qanunlara edilən dəyişiklik dövlət baytarlıq xidməti ilə dövlət baytarlıq nəzarətinin bir-birindən fərqləndirilməsi və onların sərhədlərinin dəqiq müəyyən edilməsini nəzərdə tutur. Bununla da bu sahədə fəaliyyət göstərən orqanların, o cümlədən Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin səmərəliliyi artacaq. Bu məqsədlə dövlət baytarlıq xidmətinin əhatə dairəsini müəyyən edən yeni maddə əlavə edilir. Dövlət baytarlıq xidməti bilavasitə kənd təsərrüfatı sahəsi olan heyvandarlığın inkişafına, dəstəklənməsinə, heyvan xəstəlikləri ilə mübarizə aparılmasına yönəlib.

Müzakirələrdən sonra hər iki sənəd Milli Məclisin növbədənkənar iclasına tövsiyə edildi.

## Bələdiyyələrin səlahiyyəti artırılır

Milli Məclisin Regional məsələlər komitəsinin iyunun 4-də keçirilən iclasında “Bələdiyyələrin statusu haqqında” qanunda dəyişiklik edilməsi barədə” qanun layihəsi müzakirə olunub.

Müzakirələr zamanı komitə sədri Arif Rəhimzadə bildirib ki, “Bələdiyyələrin statusu haqqında” qanun layihəsinə 49-1-ci maddə əlavə edilir. Həmin maddədə qeyd olunur ki, müvafiq icra hakimiyyəti orqanı bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə kömək edir və onlara yerli özünüidarəetmə fəaliyyətinin qanunauyğun həyata keçirilməsi sahəsində metodoloji yardım göstərilməsi üzrə tədbirlər görür.

Qanun layihəsinin 10-1-ci maddəsinə də əlavələr edilib. Belə ki, müvafiq icra hakimiyyəti orqanı bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsini təşkil edir.

Komitə üzvlərindən Fəzail İbrahimli, Kamran Bayramov, Rüstəm Xəlilov, Azər Badamov, Cavid Osmanov əlavə və dəyişiklikləri müsbət qiymətləndirdilər. Qeyd edildi ki, əlavələr bələdiyyələrin fəaliyyətinin daha da genişlənməsinə xidmət edəcək.

Sonra iclasda “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” qanun layihəsi (ikinci oxunuş), “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Büdcə sistemi haqqında”, “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında”, “Banklar haqqında”, Mühasibat uçotu haqqında” və “Mərkəzi Bank haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” qanun layihəsi (ikinci oxunuş) müzakirə olundu. Bildirildi ki, adıçəkilən sənədlərə edilən dəyişikliklər texniki və uyğunlaşdırma məqsədi daşıyır.

Müzakirəyə çıxarılan qanun layihələri Milli Məclisin növbədənkənar iclasına tövsiyə edildi.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## 5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür

**Son illər ölkəmizdə içməli su və kanalizasiya infrastrukturunun yenidən qurulması sahəsində həyata keçirilən çoxsaylı layihələr şəhər və rayon mərkəzlərində, həmçinin içməli sudan əziyyət çəkən kənd və qəsəbələrdə həyatın canlanmasına, vətəndaşların sağlamlığının qorunmasına, əhalinin sosial rifahının yüksəldilməsinə zəmin yaradır.**



# Su təsərrüfatı işçiləri Azərbaycanda həyata keçirilən sosial siyasətə mühüm töhfələr verirlər







Bu sahədə reallaşdırılan layihələr müstəqil Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin prioritet istiqaməti kimi getdikcə daha çox aktuallıq kəsb edir. Təsadüfi deyil ki, insan həyatı üçün əvəzedilməz sərvət olan içməli suyun əhəmiyyətindən bəhs edən Prezident İlham Əliyevin "Su həyat mənbəyidir, təmiz su isə sağlam həyat deməkdir" sözləri də insan amilinə verilən önəmin təcəssümüdür.

Təbiətin bəxş etdiyi əvəzsiz nemətlərdən sayılan sudan səmərəli istifadə məhdud şirin su ehtiyatlarına malik Azərbaycanda tarixin bütün dövrlərində aktual olub. Orta əsrlərə aid mənbələrdə Azərbaycanın bəzi yaşayış məntəqələrində su təchizatı sistemlərinin yaradılması barədə faktlar mövcuddur. Su təchizatı tariximizin ilkin inkişaf dövrünə - 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərinə təsadüf edir. Təxminən bir əsr əvvəl Şollar-Bakı su təchizatı qurğuları istismara verilib. Xaçmaz rayonunun ərazisindən Abşeron yarımadasına 187,5 km uzunluğunda kəmər çəkilib, Bakı şəhərində ilk dəfə mərkəzləşmiş içməli su şəbəkəsi yaradılıb.

Bu sahədə qazanılmış təcrübədən istifadə edilməklə Xaçmazdan Bakıya çəkilmiş 2-ci kəmər 1958-ci ildə istismara verilib. Abşeron yarımadasında sənayenin sürətli inkişafı və əhalinin artımı nəticəsində içməli suya artan tələbatı ödəmək üçün 1961-ci ildə Ceyranbatan sutəmizləyici qurğuları işə salınıb.

Azərbaycanın içməli su və kanalizasiya sektorunun sürətli inkişafı böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin təşəbbüsü və birbaşa rəhbərliyi ilə 1970-71-ci illərdə Kür Sutəmizləyici Qurğular Kompleksi yaradılıb, burada emal olunan suyun Abşeron yarımadasına nəqli üçün magistral kəmərlər çəkilib. Bu layihə paytaxta yeni həyat gətirib.

1970-80-ci illərdə ulu öndərin birbaşa nəzarəti altında Bakı şəhərinin tullantı su infrastrukturunun inkişafını nəzərdə tutan "Böyük kanalizasiya" layihəsi reallaşdırılıb. Həmin dövrdə Hövsan Aerasiya Stansiyası, eləcə də "Sənaye zonası", "Şəhərkənarı" və "Sahil" kollektorları, Zığ kanalizasiya nasos stansiyası inşa edilib.

Azərbaycanın əksər rayon mərkəzlərində mərkəzləşdirilmiş içməli su və kanalizasiya sistemlərinin yaradılması da ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Həmin dövrdə ulu öndərin rəhbərliyi ilə bölgələrdə yeni su mənbələri yaradılıb, sugötürücü və sutəmizləyici qurğular, su anbarları, nasos stansiyaları, magistral kəmərlər və paylayıcı şəbəkələr tikilib. Bu işlər bəzi yaşayış məntəqələrinin şəhər kimi formalaşmasında mühüm rol oynayıb.

Ümummilli lider müstəqilliyin ilk illərində də paytaxt Bakının keyfiyyətli və dayanıqlı içməli su təchizatını diqqətdə saxlayıb. Ölkədə siyasi sabitlik bərqərar olunduqdan sonra Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı "Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması layihəsi"nə 88,7 milyon dollar güzəştli kredit ayırıb. Bu vəsait hesabına 1998-2002-ci illərdə Kür və Ceyranbatan sutəmizləyici qurğularında, 250-dən artıq məhəllədaxili nasos stansiyasında əsaslı yenidənqurma işləri aparılıb, su təsərrüfatının maddi-texniki bazası gücləndirilib.

2003-cü ilin oktyabrında İlham Əliyevin xalqın etimadını qazanaraq prezident seçilməsi ilə ölkəmizin həyatında yeni inkişaf mərhələsi başladı. Ulu öndərin memarı olduğu sosial-iqtisadi inkişaf strategiyasını uğurla davam etdirən Prezident insan sağlamlığının qorunmasını dövlətin sosial siyasətinin prioriteti kimi müəyyənləşdirdi. Su kimi müqəddəs nemətin qorunması, onun keyfiyyətinin təmin olunması, gələcək nəsillər üçün etibarlı mənbələrin formalaşdırılması dövlət proqramlarında xüsusi qeyd olundu. Əhalinin içməli su təminatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə bu sektorda struktur islahatlarına başlanıldı. Dövlət başçısının "Su təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 11 iyun 2004-cü il tarixli sərəncamına əsasən, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti yaradıldı.

2000-ci illərin əvvəllərindən etibarən Bakı şəhərinin və ətraf qəsəbələrin böyüməsi, yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması içməli suya olan tələbatı ciddi şəkildə artırmışdı. Bu məsələnin həlli yollarını da ümummilli lider Heydər Əliyev zərgər dəqiqliyi ilə göstərmişdi. O, Bakıya Oğuz-Qəbələ zonasından saf və təmiz bulaq suyunun gətirilməsinin vacibliyini bildirmiş və bununla bağlı araşdırmalara başlanılması barədə tapşırıq vermişdi.

Ulu öndərin bu ideyasını Prezident İlham Əliyev həyata keçirdi. 2007-ci ilin martında Oğuz-Qəbələ-Bakı su kəmərinin təməli atıldı. Dövlət Neft Fondundan maliyyələşdirilən layihə çərçivəsində Oğuz rayonunun ərazisində məhsuldarlığı saniyədə 5 kubmetr olan mənbə yaradıldı, buradan Abşeron yarımadasına 262,5 km özüaxımlı magistral su kəməri inşa edildi. Tikintisinin böyük bir hissəsi mürəkkəb relyefdə aparılan kəmər 2010-cu ilin dekabrında istismara verildi. Bununla da Bakı şəhərinin əksər ərazilərinin su təchizatında stabillik təmin edildi, bəzi yerlərdə isə fasiləsiz rejimə keçirildi.

Sürətlə böyüyən və inkişaf edən paytaxtı fasiləsiz su ilə təmin etmək üçün əlavə su həcmlərinə ehtiyac var idi. Abşeron yarımadasındakı qəsəbə və kəndlərdə mərkəzləşdirilmiş su şəbəkələrinin yaradılması, əhalinin suya olan tələbatının artması, suyun keyfiyyətinin təmin edilməsi, magistral kəmərlərdə mümkün qəzalar zamanı su təchizatında problemlərin yaranmaması su mənbələrinin əlaqələndirilməsini tələb edirdi. Bu məqsədlə Bakı şəhərinə yaxın yeni su mənbəyinin yaradılmasına qərar verildi. 2011-ci ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan gölünün yaxınlığında ultrasüzgəc texnologiyasına əsaslanan yeni kompleksin təməli qoyuldu. Tikintisində aparıcı xarici şirkətlərin iştirak etdiyi və ən son texnologiyaların tətbiq olunduğu kompleks 2015-ci ilin oktyabrında istifadəyə verildi. Açılış mərasimində cənab Prezident bildirmişdir: "Bu kompleksdə ən müasir texnologiyalar tətbiq edilir, dünyanın ən böyük sutəmizləyici kompleksidir və Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət edəcək. Bax bu gün xəritədəki mənzərə onu göstərir ki, uzun illər içməli sudan korluq çəkən Bakı qəsəbələri bundan sonra bu təmiz suyu alacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli sudur".

Ənənəvi təmizləmə qurğularından fərqli olaraq yeni kompleksdə su ultrasüzgəc texnologiyasına əsaslanmaqla heç bir kimyəvi təmizlənmə aparılmadan avtomatik rejimdə mexaniki üsulla təmizlənir. Məhsuldarlığı saniyədə 6,6 kubmetr təşkil edən qurğu 2016-cı ildə Abu Dabi Qlobal Su Sammitində dünya su sənayesinin ən önəmli 4 layihəsindən biri seçilib.

Oğuz-Qəbələ-Bakı su kəmərinin və Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin istismara verilməsi Kür sutəmizləyici qurğularında emal olunan və Bakıya ötürülən suyun bir hissəsinin içməli su problemi ilə üzləşən Aran bölgəsinin ehtiyaclarının ödənilməsinə yönəltməyə imkan yaratdı. Qurğuda emal olunan suyun ətraf rayonlara verilməsi məqsədilə Şirvan-Muğan və Sabirabad-Saatlı qrup su kəmərləri istismara verildi. Bununla da Hacıqabul, Şirvan, Salyan, Biləsuvar, Saatlı və Sabirabad şəhərləri, həmçinin kəmərlərin marşrutu boyu 30-dan artıq kənd keyfiyyətli içməli su ilə təmin olundu.

Mərkəzi Aran bölgəsinin sudan əziyyət çəkən yaşayış məntəqələrinin su təchizatı məqsədilə Girdmançayın yatağında məhsuldarlığı saniyədə 450 litr olan Külüllü su mənbəyi yaradılıb və anbar kompleksi tikilib. Buradan Zərdab, Ucar, Kürdəmir və Ağsu şəhərlərinə 182 km uzunluğunda 4 magistral kəmər çəkilib. Hazırda bu şəhərlər və magistral kəmərlərin yaxınlığında yerləşən 50-dən artıq kənd Külüllü mənbəyi hesabına keyfiyyətli içməli su ilə təchiz olunur.

Lənkəran və Astara şəhərlərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə Xanbulançay su anbarının imkanlarından istifadə etməklə yeni texnologiyaya əsaslanan və məhsuldarlığı sutkada 30 min kubmetr olan sutəmizləyici qurğular kompleksi inşa edilib. Buradan Lənkəran şəhərinə 12 km, Astara şəhərinə isə 25 km uzunluğunda magistral su kəmərləri çəkilib.

Bölgələrdə yaşayan əhalini keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək məqsədilə Mingəçevir, Quba, Qobustan və Ağstafa sutəmizləyici qurğuları da istismara verilib.

Regionlarda tikilən ən böyük sutəmizləyici qurğu olan Şəmkirçay sutəmizləyici qurğusu Gəncə, Şəmkir, Samux şəhərləri və ətraf kəndlərdə 300 mindən artıq insanın keyfiyyətli və fasiləsiz içməli su təminatına hesablanıb. Məhsuldarlığı sutkada 140 min kubmetr olan bu qurğudan Gəncə şəhərinə 27 km, Şəmkir şəhərinə isə 16,5 km uzunluğunda magistral su kəməri çəkilib.



Ötən dövrdə əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə Qusar, Şamaxı, Şəmkir, Xaçmazda horizontal sugötürücü qurğular, Qax, Gədəbəy, Daşkəsən, Xızı, Oğuz rayonlarında kaptaj qurğuları yaradılıb. Ümumilikdə son illər yaradılmış və məhsuldarlığı saniyədə 18,5 kubmetr olan 39 yeni içməli su mənbəyi Azərbaycan vətəndaşlarının sağlamlığına və sosial rifahının yüksəlməsinə hesablanmış uğurlu layihələrdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq su və kanalizasiya layihələrinin icrasına başlanılmış 50 şəhər və rayon mərkəzinin 38-də içməli su şəbəkələrinin tikintisi yekunlaşıb.

Ötən müddətdə şəhər və rayon mərkəzləri ilə yanaşı, əhalisinin sayı 1 milyon 400 min nəfər olan 1050 kəndin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı işlər görülüb. Prezident İlham Əliyevin 2017 və 2018-ci illərdə imzaladığı sərəncamlar, həmçinin dövlət investisiya proqramları çərçivəsində 46 rayonun 211 kəndində içməli su layihələri icra olunub. Bununla da 330 min sakinin keyfiyyətli içməli suya çıxışı təmin edilib.

Məcburi köçkün qəsəbələri, cəbhəyanı ərazilər və təmas xəttində yerləşən yaşayış məntəqələrinin su təminatı xüsusi diqqətdə saxlanılıb. Bu məqsədlə Biləsuvar rayonunun ərazisində Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün salınmış qəsəbələrdə, Füzuli, Ağdam, Ağcabədi, Tərtər, Goranboy, Tovuz və Qazax rayonlarının cəbhəboyu kəndlərində layihələr həyata keçirilib.

Qlobal istiləşmə və quraqlıq nəticəsində bəzi su mənbələrinin məhsuldarlığında baş vermiş dəyişiklikləri nəzərə alaraq Şamaxı, Gədəbəy, Lerik və Tovuz şəhərləri üçün alternativ mənbələrin yaradılması layihələri icra edilib.

Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı və kanalizasiya infrastrukturunun inkişaf etdirilməsi məqsədilə 2011-ci ildə Abşeron yarımadasının su təchizatı, kanalizasiya sistemləri və yağış sularının idarə olunması üzrə Master Plan hazırlanıb. Hazırda həyata keçirilən layihələr bu sənədin tələblərinə uyğun icra edilir. Master Planın əsas layihələrindən olan Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və 84 km uzunluğunda Ceyranbatan-Zirə magistral su kəməri, həmçinin kəmərin marşrutu boyunca yerləşən anbar kompleksləri istehlakçıların dayanıqlı su təminatı üçün yeni imkanlar açıb. Yeni yaradılmış infrastruktur hesabına Pirallahı, Dübəndi, Gürgan, Türkan, Zirə, Qala, Mərdəkan, Şüvəlan, Şağan qəsəbələri, həmçinin Binəqədi, Sabunçu və Suraxanı rayonlarının bir sıra yaşayış məntəqələri dayanıqlı içməli su ilə təmin edilib.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin qrantı hesabına icra edilmiş layihə çərçivəsində Kürdəxanı qəsəbəsində yeni su təchizatı sistemləri yaradılıb və 14 mindən artıq sakin fasiləsiz rejimdə içməli su ilə təmin olunub. Abşeron yarımadasında ekoloji problemlərin həlli məqsədilə icra olunan "Təmiz Şəhər" layihəsi Balaxanı qəsəbəsində yeni su təchizatı sistemlərinin yaradılmasına imkan verib.

Səudiyyə İnkişaf Fondu ilə birgə maliyyələşdirilən layihə çərçivəsində Badamdar qəsəbəsində yeni infrastrukturun yaradılması işlərinin birinci mərhələsi yekunlaşıb. Bu layihənin imkanlarından istifadə olunmaqla 20-ci sahə yaşayış massivinin içməli su təminatı da əsaslı şəkildə yaxşılaşacaq. Fondun maliyyələşdirdiyi digər layihə çərçivəsində Xırdalan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması davam etdirilir.

Bakı şəhərinin şərq hissəsinin içməli su təchizatında müstəsna əhəmiyyət daşıyan anbar komplekslərində aparılan yenidənqurma işləri nəticəsində Nizami, Xətai, Suraxanı və Sabunçu rayonlarının böyük hissəsi fasiləsiz rejimdə içməli su ilə təmin edilib. Eyni zamanda, yeni magistral və paylayıcı şəbəkələrin tikintisi, yeni birləşmələrin verilməsi paytaxt sakinlərinin dayanıqlı və keyfiyyətli su təminatına imkan yaradıb. Bakının küçə və prospektlərində yol infrastrukturlarının yenidən qurulması ilə əlaqədar uzun illərdir istismarda olan su və kanalizasiya xətləri də yenilənir.

2013-cü ildə çoxmənzilli yaşayış binalarının daxili kommunikasiya sistemlərinin "Azərsu" ASC-nin balansına verilməsindən sonra 5000-dən artıq binanın daxili kommunikasiya xətləri yenidən qurulub.

Son illər istehlakçıların içməli su ilə təminatının yaxşılaşdırılması kanalizasiya xidmətlərindən istifadənin aktuallığını artırıb. Abşeron yarımadasında və regionlarda yeni kanalizasiya şəbəkələrinin, kollektorların və tullantı sutəmizləyici qurğuların tikintisi, eləcə də mövcud xətlərin rekonstruksiyası göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə imkan verib.

Sumqayıt şəhərində və ətraf ərazilərdə yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 100 min kubmetr olan tullantı sutəmizləyici qurğu inşa edilib. Ötən dövrdə məhsuldarlığı sutkada 10 min kubmetr olan Buzovna tullantı sutəmizləyici qurğusu inşa edilib, sutkalıq məhsuldarlığı 16 min kubmetr olan Şüvəlan tullantı sutəmizləyici qurğusu yenidən qurulub.

Azərbaycan hökuməti və Koreya İxrac-İdxal Bankının birgə maliyyələşdirdiyi layihə çərçivəsində Pirşağı qəsəbəsində məhsuldarlığı sutkada 40 min kubmetr layihələndirilən tullantı sutəmizləyici qurğunun tikintisi isə davam etdirilir.

Azərbaycanda tunel tipli kanalizasiya kollektorlarının tikintisinə başlanılıb. Bayıl-Bibiheybət-Lökbatan, Xocasən-Binəqədi-Xırdalan, Bilgəh-Pirşağı, Dərnəgül-Zığ-Hövsan, Novxanı-Sumqayıt kollektorları kanalizasiya infrastrukturunun yaxşılaşdırılmasına və Xəzər dənizinə təmizlənmədən axıdılan tullantı sularının qarşısının alınmasına hesablanıb. 14 km uzunluğunda Bayıl-Bibiheybət-Lökbatan, 15 km-lik Novxanı-Sumqayıt kanalizasiya kollektorlarının istismara verilməsi, eləcə də Bakı buxtasının sahili boyu mövcud xətlərin reabilitasiyası Dənizkənarı Milli Park, Dövlət Bayrağı Meydanı, Şıx, Novxanı və Sumqayıt çimərliklərinin əhatə etdiyi böyük bir ərazidə dənizə axıdılan tullantı sularının qarşısını alıb.

Bakı şəhərində və Abşeron yarımadasında səth və qrunt sularının yaratdığı problemlərin həlli məqsədilə 16 ünvanda layihələr icra edilib. Bu layihələr çərçivəsində 20 km-dən artıq yağış-kanalizasiya kollektorları inşa olunub, Böyükşor, Məhəmmədi, Kürdəxanı və Taşağıl göllərində su səviyyəsinin tənzimlənməsi məqsədilə infrastruktur yaradılıb. Bununla da həmin ünvanlarda subasma hallarının qarşısı alınıb.

Dövlət başçısının ərzaq təhlükəsizliyinin və ölkənin ixrac potensialının artırılmasının təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Zərdab, Hacıqabul və Şamaxı rayonlarının ərazisində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması layihələri həyata keçirilib. Bu məqsədlə Kür çayı sahilində məhsuldarlığı saniyədə 3 kubmetr olan sugötürücü qurğu, nasos stansiyası, həcmi 50 min kubmetr olan anbarlar tikilib, əkin sahələrinə 42 km uzunluğunda əsas daşıyıcı kəmərlər çəkilib və ərazilərə suyun verilməsi təmin edilib. Şamaxı və Hacıqabul rayonlarında əkin sahələrinin suvarılması üçün tələb olunan 5 kubmetr su Kür Sutəmizləyici Qurğular Kompleksindən verilir.

Ötən dövrdə həyata keçirilən layihələr çərçivəsində məhsuldarlığı sutkada 690 min kubmetr olan 7 sutəmizləyici qurğu, 300-dən çox su anbarı və anbar kompleksi tikilib və ya yenidən qurulub, 18 min km-dən çox magistral və paylayıcı su, 4000 km-dən artıq kanalizasiya xətləri çəkilib, 120-dək su və kanalizasiya nasos stansiyası tikilib, 335 artezian və subartezian quyusu qazılıb. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti dövründə 1 milyondan çox sayğac quraşdırılıb və sayğaclaşma səviyyəsi 82 faizə çatdırılıb.

Görülmüş işlər nəticəsində mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunan əhalinin sayı 2 dəfədən çox artıb, abonentlərin sayı isə 1 milyon 470 minə çatıb.

2004-cü illə müqayisədə fasiləsiz su ilə təmin olunan əhalinin xüsusi çəkisi Bakı şəhərində 29 faizdən 81,5 faizə, regionlarda isə 9 faizdən 43,4 faizə yüksəlib. Beləliklə, ölkə üzrə əhalinin fasiləsiz su təminatının səviyyəsi 69,9 faizə çatıb.

İstehlakçılara verilən içməli suyun keyfiyyətinin standartlar çərçivəsində nəzarətdə saxlanılması məqsədilə yeni Mərkəzi Laboratoriya inşa edilib. 2013-cü ildə istifadəyə verilmiş laboratoriyada Almaniya, Fransa, ABŞ, Yaponiya və digər ölkələrin beynəlxalq səviyyədə tanınmış şirkətlərinin avadanlıqları və cihazları quraşdırılıb. Həmin cihaz və avadanlıqların köməyi ilə içməli su və tullantı sularının fiziki-kimyəvi və bakterioloji göstəriciləri dəqiq və etibarlı analiz olunur. Yeni laboratoriya yaradıldıqdan sonra içməli və tullantı sularının təhlil edilən göstəriciləri 39-dan 110-a, nümunə sayı 7 mindən 16 minə, monitorinq nöqtələrinin sayı 180-dən 1300-ə çatdırılıb.

Fəaliyyətə başladıqdan cəmi bir il sonra beynəlxalq akkreditasiyadan keçən laboratoriya dünyanın aparıcı şirkətlərinin təmsil olunduğu səriştəlilik proqramlarına qoşulub.

Bu təcrübədən istifadə etməklə respublika üzrə 9 regional laboratoriyanın yaradılması işləri başa çatdırılıb. Regional laboratoriyaların coğrafi məkanı elə seçilib ki, Azərbaycanın ən ucqar ərazisində yerləşən mənbələrdəki suyun keyfiyyət göstəricilərini də daim nəzarətdə saxlamaq mümkündür.

"Azərsu" ASC-də informasiya və kommunikasiya texnologiyalarının beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi, texnoloji proseslərin avtomatlaşdırılması, yeni elektron xidmətlərin yaradılması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Bir neçə ildir uğurla tətbiq olunan AzərsuCİS (Azərsu ci-ay-es) coğrafi informasiya sistemi istehsalatda müsbət nəticələr verməkdədir. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə aid bütün yeraltı və yerüstü infrastruktur məlumatların toplandığı bu sistemə indiyə qədər 17100 km su, 8500 km kanalizasiya xətti, 6 mindən çox qurğu və kompleks, 536 min bina ilə bağlı məlumatlar daxil edilib. Sevindirici haldır ki, AzərsuCİS (Azərsu ci-ay-es) layihəsi nüfuzlu Bentli müsabiqəsinin, eləcə də Beynəlxalq Coğrafi İnformasiya Sistemləri Forumunun qalibi olub.

"Elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Prezident fərmanına uyğun olaraq 17 elektron xidmət vətəndaşların istifadəsinə verilib. Ən çox elektron müraciət qəbul edən 5 dövlət qurumundan biri olan "Azərsu" ASC-yə 2018-ci ildə 345 min müraciət daxil olub.

Vətəndaşların işinin asanlaşdırılması, şəffaflığın təmin edilməsi məqsədilə "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində "Azərsu" ASC-nin xidmət bölmələrinin fəaliyyəti tam təmin edilib. Ümumilikdə 2014-cü ildən indiyədək bütün xidmət mərkəzlərinə vətəndaşlar tərəfindən 220 mindən çox müraciət daxil olub.

Beynəlxalq əlaqələrini genişləndirən cəmiyyət ölkə daxilində və xaricdə keçirilən sərgi-konfransların, beynəlxalq əhəmiyyətli tədbirlərin fəal iştirakçısına çevrilib.

Ölkəmizdə su sektorunda həyata keçirilən layihələr beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilir. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin 2015 və 2018-ci illərdə Dünya Su Şurasının idarə heyətində, 2017-ci ildə Beynəlxalq Su Ehtiyatları Assosiasiyasında təmsil olunmasında bu amil həlledici rol oynayıb.

14-18 mart 2017-ci il tarixlərində Bakı şəhərində 1-ci Bakı Beynəlxalq Su Həftəsi keçirilib. Həftə çərçivəsində dünyanın unikal su təchizatı sistemlərindən sayılan Şollar-Bakı su təchizatı qurğularının 100 illik yubileyi, Dünya Su Şurasının İdarə Heyətinin 61-ci Toplantısı və digər tədbirlərdə 37 ölkədən olan 200-dən çox qonaq iştirak edib. 1-ci Bakı Beynəlxalq Su Həftəsinin yekununda Bakı Bəyannaməsi qəbul edilib.

Səhmdar cəmiyyətdə insan resurslarından səmərəli istifadə məqsədilə kompleks tədbirlər həyata keçirilir. 2014-cü ildə Fransanın "Suez Environnement" (Envayrment) şirkəti ilə praktiki təlim, nou-hau ötürülməsi və texniki yardıma dair müqavilə imzalanıb və təlim sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində işlər aparılıb. Eyni zamanda, Hövsan Aerasiya Stansiyasının ərazisində yeni Təlim-Tədris Mərkəzi yaradılıb. Mərkəzdə beynəlxalq və regional təlimlərin keçirilməsi üçün lazımi şərait təmin olunub. Mütəxəssislərin praktiki biliklərinin artırılması məqsədilə burada təcrübə poliqonunun tikintisi davam etdirilir.

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ölkəmizin elm və təhsil müəssisələri ilə əməkdaşlığa da xüsusi önəm verir. Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə imzalanmış əməkdaşlığa dair sazişlər kadr potensialının gücləndirilməsinə töhfələr verməkdədir.

Fəaliyyətində ekoloji layihələrin icrasına önəm verən "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ətraf mühitin qorunması və ekoloji sabitliyin təmin olunması tədbirlərində də fəal iştirak edir. Son illər cəmiyyətin idarə və müəssisələrinin, hidrotexniki qurğularının yerləşdiyi ərazilərdə 500 hektar yaşıllıq sahəsi yaradılıb. Yaşıllaşdırma tədbirləri çərçivəsində 250 mindən artıq müxtəlif növ ağac və kol bitkiləri əkilib.

Ekoloji fəaliyyət çərçivəsində Yasamal rayonunda yerləşən mərkəzi su anbarının ərazisində 6 hektardan artıq sahədə müasir park yaradılıb. Yasamal parkında yaşıllıq zolaqları, fəvvarələr, seyrəngahlar, uşaq meydançaları və idman qurğuları inşa edilərək paytaxt sakinlərinin istifadəsinə verilib.

Su təsərrüfatı işçilərinin əməyi hər zaman ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. "Azərsu" ASC-nin əməkdaşlarının fəxri ad və medallarla təltif olunması, icrasına başlanan və istismara verilən bir çox layihələrin təməl və açılış mərasimlərində Prezident İlham Əliyevin şəxsən iştirakı, 14 may 2014-cü ildə imzalanmış sərəncamla iyun ayının 5-nin "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramının təsis edilməsi bunun bariz nümunəsidir.

*"Azərsu" ASC-nin çoxminli kollektivi ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəlməsinə hesablanmış içməli su və kanalizasiya layihələrinin vaxtında və keyfiyyətlə icrası məqsədilə bundan sonra da var qüvvəsi ilə çalışacaq. Bir sözlə, su təsərrüfatı işçiləri istehlakçılara göstərilən içməli su təchizatı və kanalizasiya xidmətlərinin keyfiyyətinin daha da yaxşılaşdırılması, bu xidmətlərdən daha çox insanın yararlanması ilə bağlı layihələrin icrasını davam etdirməklə Azərbaycanda həyata keçirilən sosial siyasətə öz töhfəsini verəcəklər.*

**Qorxmaz HÜSEYNOV,**
***"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri***

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153; № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1566-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 850.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"850.1. Yük daşınması müqaviləsinə görə daşıyıcı yükü haqq (yüklərin daşınması üçün haqq) müqabilində olduğu yerdən təyinat yerinə daşımağı, yük göndərən, yükü alan və ya onların səlahiyyətləndirdiyi digər şəxs isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.".

2. 851-ci maddə üzrə:

2.1. adına "yük alan" sözlərindən sonra ". Daşıyıcı" sözü əlavə edilsin;

2.2. mətnində "daşıyıcı ilə müqavilə bağlayan" sözləri "adından yük göndərilməsi rəsmiləşdirilən fiziki və ya hüquqi" sözləri ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Yük alan əqd əsasında yüklərin alınmasına səlahiyyətli fiziki və ya hüquqi şəxsdir. Daşıyıcı müqavilə əsasında və haqq müqabilində yükün olduğu yerdən təyinat yerinə daşınmasını həyata keçirən və mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan fiziki və ya hüquqi şəxsdir.".

3. Aşağıdakı məzmunda 853.1-1-ci maddə əlavə edilsin:

"853.1-1. Yük göndərən yükün daşınması müqaviləsinin lazımınca icrası üçün yükə aid olan sənədləri və digər məlumatları daşıyıcıya təqdim etməlidir.".

4. 861-ci maddənin mətni 861.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 861.2-ci maddə əlavə edilsin:

"861.2. Ekspeditora qarşı yaranan tələblər üzrə iddia müddəti iddia qaldırmaq hüququ yarandığı andan bir il təşkil edir. Ekspeditora qarşı iddia qaldırılmazdan əvvəl ona yazılı formada pretenziya verilməsi məcburidir. Pretenziya iddia müddəti ərzində verilə bilər. Ekspeditor pretenziyanı rədd etdikdə və ya qismən qəbul etdikdə, yaxud 30 gün müddətində pretenziyaya cavab vermədikdə, ona qarşı məhkəmədə iddia qaldırıla bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1588-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1588-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

## "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2575) 2-ci hissəsinə "Talassemiya Mərkəzi" sözlərindən sonra "B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transplantologiya İnstitutu, K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu, V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

## "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 354 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 354 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2267) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"3.1-1. həmin Qanunun 13.1-ci maddəsinin birinci, ikinci, üçüncü cümlələrində, 13.4-cü maddəsində və 15.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir.";

1.2. 3.2-ci bəndə "Milli Televiziya və Radio Şurası" sözlərindən sonra ", "müvafiq icra hakimiyyəti orqanları" dedikdə mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, həmçinin belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərə (o cümlədən animasiya filmlərinə), kompüter oyunlarına və digər elektron oyunlara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, mətbu nəşrlərə və digər informasiya məhsullarına münasibətdə isə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

## "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2550) 2-ci və 5-ci hissələrində "iyunun 1-dən" sözləri "noyabrın 1-dən" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2019-cu il*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1429-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153; № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1566-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 965.2-ci maddədə "Hesabdakı" sözü "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, hesabdakı" sözləri ilə əvəz edilsin.

2. 965.3-cü maddədə "Bir" sözü "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, bir" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1593-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1593-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879, № 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189, № 3, maddə 449, № 4, maddələr 662, 682, № 8, maddə 1688, № 9, maddə 1840, № 10, maddə 1985, № 11, maddə 2264, № 12 (I kitab), maddələr 2565, 2585) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.19.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 8.19.3-cü yarımbənd əlavə edilsin:

"8.19.3. gömrük sərhədini keçən fiziki şəxslər barədə gömrük qanunvericiliyinin pozulmasına dair əməliyyat məlumatı olduqda həmin məlumatların, habelə gömrük qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə son bir il ərzində barəsində inzibati tənbeh tətbiq edilən və ibtidai istintaqı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aparılan cinayətlərə görə məhkumluğu olan şəxslər barədə məlumatların "Sərhədkeçmə zamanı xüsusi diqqət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi.";

1.2. 12.6-1.1-ci yarımbəndə "müvəqqəti aparan" sözlərindən sonra ", həmçinin bu Əsasnamənin 8.19.3-cü yarımbəndində nəzərdə tutulan" sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 12.6-1.1.3-cü yarımbənd əlavə edilsin:

"12.6-1.1.3. bu Əsasnamənin 8.19.3-cü yarımbəndində nəzərdə tutulan fiziki şəxslərə gömrük nəzarəti formalarının tətbiq edilməsi;".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə bu Fərmanın icrası ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

## "Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının 17-ci hissəsinə əsasən **qərara alıram:**

1. "Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Bu barədə AZƏRTAC-a QMİ-dən məlumat verilib.

Təbrikdə deyilir ki, əzəmət və sevinci hədsiz olan bu ülvi bayram insanlara böyük səadət və fəxarət bəxş edir. Həmd-səna olsun Uca Allaha ki, Onun Rizasını qazanmaq üçün müsəlman qardaş və bacılarımız bu mübarək ay boyunca bütün ibadətlərini sonsuz ehtiram, fərəh və səylə tamamlayaraq, Ramazani-Şərifin bayram səadətinə qovuşmağa nail olublar. Qoy İslam dininə ehtiramını nümayiş etdirən, Allahın vacib hökmü olan oruc ibadətini səmimi hisslərlə başa vuran xalqımıza bu mübarək ayın fəzilət və bərəkətlərindən nəsib olsun.

Mərhəmət, savab və ülfət ayı olan Ramazan bəşər övladına dözüm, xeyirxahlıq və yardımlaşmanı təlqin edir. Bu ülvi bayram günündə qohum-əqrəba, valideynlərə baş çəkilməsi, küsülülərin barışması, yetim, kimsəsiz və ehtiyacı olanlara şəfqət göstərilməsi, dünyasını dəyişmiş yaxınların qəbirlərinin ziyarəti müstəhəb əməllərdəndir.

Allah Təbarəkə və Təalanın lütfü və mərhəməti sayəsində Ramazan bayramını qarşılayan xalqımızın ülvi arzuları Vətənimiz üçün səadət, əmin-amanlıq istəkləri ilə qovuşur. Bu əziz gündə biz Allaha dualar edirik ki, inşallah, işğal altında olan torpaqlarımızın azad edilməsini, dövlətçiliyimizin davamlı olaraq tərəqqisini, Azərbaycanın dünya birliyində mövqe və nüfuzunun daha da möhkəmlənməsini bizlərə nəsib etsin.

Bu əziz bayram günündə qədirbilən xalqımız Azərbaycanın milli-mənəvi dəyərlərinin dirçəldilməsi və inkişafında əvəzsiz xidmətləri olmuş ümummilli liderimiz Heydər Əliyevin ruhuna rəhmət oxuyur və onun layiqli davamçısı, müstəqil Azərbaycanın siyasi, iqtisadi, mədəni-mənəvi qüdrətinin təmini üçün yorulmaz səylər göstərən, dövlətçilik tariximizə yeni, qürurverici səhifələr yazan Prezident İlham Əliyev həzrətlərinə Azərbaycanın tərəqqisi, Haqq işimizin qələbəsi naminə fəaliyyətində böyük nailiyyətlər diləyirlər.

"Bir daha əziz bayram - Eydül-Fitr səadətinə yetişən bütün müsəlmanlarımızı səmimi qəlbdən təbrik edir, xeyir-dualarımı yetirirəm.

Qoy qəlbində Allah məhəbbəti yaşadan xalqımızın, inşallah, bütün ülvi arzu və niyyətləri gerçəkləşsin! Allah cəmi şəhidlərimizə rəhmət eləsin, qəbirləri nurla dolsun! Qoy Allah orucumuzun əcri olaraq Öz Lütfü sayəsində bizlərə xeyir və bərəkətini artırsın, mənəvi birliyimizi gücləndirsin! Amin!", - deyə təbrikdə bildirilir.




# Milli-mənəvi dəyərlər işığında

*Əvvəli 1-ci səh.*

Amma tarixinənginliklərindən süzülüb gələn müqəddəs islami dəyərlərin insan ruhuna verdiyi mənəvi qidanın nəticəsi idi ki, islamı unutdurmaq heç kimə nəsib olmadı. Dövlət müstəqilliyimizi yenidən bərpa edəndən sonra islam dininin milli həmrəyliyimizin möhkəm olmasında nə qədər böyük rol oynadığının şahidi olduq.

Azərbaycanın inkişafının məhz dərin tarixi, mədəni və mənəvi köklərlə sıx vəhdətdə olduğunu ulu öndər Heydər Əliyev hələ sovet hakimiyyəti zamanı ölkəyə rəhbərlik edərkən nəzərə alırdı. Ulu öndər bilirdi ki, dini dəyərlərin məhv edilməsi, mental baxışların dəyişdirilməsi yönündə həyata keçirilən tədbirlər yalnız və yalnız xalqımızın mənəvi məhvinə hesablanmış məkrli siyasətdir. Xalqın mənəvi məhvi isə onun ən böyük faciəsi ola bilərdi. Siyasi fəaliyyətinin əsas hissəsi sovet dövrü ilə bağlı olan xalqımızın ümummilli lideri kommunizm ideologiyasının şüurlara yeridildiyi bir vaxtda belə qəlbində uca Allaha inam bəsləyib, islamın və xalqımızın bir-biri ilə uzlaşan mənəvi dəyərləri onun həyat amalı olub.

İslami dəyərlərə önəm verilməsi bu gün azərbaycançılıq ideologiyasının da şərtlərindən biri kimi qəbul edilib. Bu ideologiyanın müəllifi olan müasir Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyev çıxışlarının birində demişdir: *"Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır. Və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".*

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra ölkəmizdə tarixi-mənəvi irsin, mədəniyyətin, milli mentalitetin ayrılmaz hissəsi kimi qəbul edilən islami dəyərlər yenidən canlandı. Xalqımızın onilliklər boyu ürəyində gəzdirdiyi ən müqəddəs dəyərlər cəmiyyətdə özünün layiqli yerini tutmağa başladı. İndi milli bayramlarla yanaşı, dini bayramlar da dövlət səviyyəsində qeyd olunur. Bunlar xalqımızın islamın mənəvi dəyərlərinə olan hörmət və ehtiramının göstəricisidir. Mütərəqqi milli-dini ənənələrin dirçəldilməsi cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişində, xalqımızın bütövlüyü və birliyində misilsiz rol oynayan amillərdəndir.

İnsanlara mənəvi rahatlıq gətirən, öz iradələrini yoxlamaq imkanı verən Ramazan bayramı da Azərbaycanda dövlət səviyyəsində qeyd olunur. Prezident İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bu barədə deyilir: *"Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar".*

Cəmiyyətimizdə mənəvi dəyərlərin yüksəldilməsi və dövlət-din münasibətləri baxımından Heydər Əliyev tərəfindən müəyyən edilən yol Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Prezident İlham Əliyev ulu öndərin əsasını qoyduğu mütərəqqi ənənələri layiqincə yaşadır, mənəvi dəyərlərin möhkəmləndirilməsinə xüsusi diqqət və qayğı ilə yanaşır. Dini mərasimlərdə, iftar mərasimində iştirak etməsi, dindarlarla mütəmadi görüşləri, müsəlman dövlətlərinin səfirlərini qəbul etməsi, ölkə vətəndaşlarına təbrik ünvanlaması dövlət başçısının mənəvi dəyərlərimizə nə qədər bağlı olmasının təcəssümüdür.

Hüquqi dövlət olan Azərbaycanda dövlət-din münasibətləri sağlam təməllər üzərində formalaşıb. İslam dəyərlərinin də daxil olduğu milli-mənəvi dəyərlər bu gün ölkəmizin yüksəlişində böyük rol oynayır. Azərbaycan tarixi ənənələrindən, ölkədəki sağlam dini mühitdən çıxış edərək dünyada islam həmrəyliyinin möhkəmləndirilməsi üçün çalışır. Eyni zamanda Azərbaycan bütün dünyada islamofobiyaya, islamın mahiyyətinin təhrif edilməsinə, onu terrorla eyniləşdirməyə qarşı ən kəskin şəkildə öz səsini ucaldan dövlətdir. Bu baxımdan respublikamızdakı multikulturalizm və tolerantlıq mühiti də islamın sülh və mərhəmət dini olduğunu təsdiq edir.

Bu gün Azərbaycanda Ramazan bayramı qeyd olunur. Evlərdə bayram süfrəsi açılır, insanlar qonaq gedir, bir-birini təbrik edirlər. Bu bayramda hər bir azərbaycanlının əsas diləyi torpaqlarımızın işğaldan azad edilməsidir. O gün isə uzaqda deyil və xalqımızın Ramazan sevincinin sədası tezliklə bütün Qarabağda eşidiləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Su təsərrüfatı və meliorasiya işçiləri peşə bayramlarını qeyd edirlər



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı və "Azərsu" Açıq Səhmdar cəmiyyətlərinin kollektivləri 5 İyun - "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramlarını qeyd edirlər.

"Su təsərrüfatı və meliorasiya işçiləri günü" Prezident İlham Əliyevin 2014-cü il 14 may tarixli sərəncamı ilə təsis edilib və hər il iyunun 5-də qeyd olunur.

AZƏRTAC xəbər verir ki, hər iki qurumun rəhbərləri və əməkdaşları iyunun 4-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsi yad edilib.

Daha sonra Bakı Biznes Mərkəzində "Azərbaycanda su təsərrüfatı və meliorasiyanın inkişafında Heydər Əliyev ideyalarının rolu" mövzusunda təşkil edilən sərgi ilə tanışlıq olub.

Sərgi ilə tanışlıqdan sonra "Su təsərrüfatı və meliorasiya işçiləri günü"nə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə ölkədə meliorasiya və su təsərrüfatının inkişafında ulu öndər Heydər Əliyevin böyük və tarixi xidmətləri olduğunu vurğulayaraq qeyd edib ki, bu siyasət indi onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsi olaraq mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşıb, sahənin maddi-texniki bazası gücləndirilib.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov ölkə əhalisinin keyfiyyətli içməli su ilə təchizatı istiqamətində bəzi layihələrin uğurla başa çatdırıldığını, bir sıra layihələrin isə hazırda davam etdirildiyini bildirib. Qeyd edib ki, ölkə əhalisinin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub və hazırda bu məsələ Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir.

Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Azər Əmiraslanov, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və başqaları çıxışlarında su təsərrüfatı və meliorasiya işçilərini peşə bayramları münasibətilə təbrik edib, ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi və dəstəyi ilə yaradılmış güclü potensiala malik meliorasiya və su təsərrüfatı kompleksinin hazırda Prezident İlham Əliyevin xüsusi diqqəti nəticəsində daha da inkişaf etdirildiyini bildiriblər. Çıxışlarda su təsərrüfatı və meliorasiya işçilərinin bu diqqət və qayğıya əməli işləri ilə cavab verəcəklərinə əminlik ifadə olunub, qarşıda duran vəzifələrdən danışılıb.

Tədbirin sonunda iştirakçılar adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

# Belqradda Azərbaycan və Serbiya XİN-ləri arasında siyasi məsləhətləşmələr keçirilib

Belqradda Azərbaycan və Serbiya XİN-ləri arasında siyasi məsləhətləşmələr keçirilib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Ramiz Həsənov, Serbiya tərəfindən isə Xarici İşlər Nazirliyinin Siyasi Departamentinin direktoru Zoran Vuyiç rəhbərlik edib.

Tərəflər iki ölkə arasında dostluq və əməkdaşlıq şəraitində inkişaf edən qarşılıqlı faydalı strateji tərəfdaşlıq münasibətlərinin ölkələrimizin tərəqqisi üçün vacib amil olduğunu məmnuniyyətlə qeyd ediblər.

Məsləhətləşmələrdə Azərbaycanın bilavasitə təşəbbüsü, dəstəyi ilə həyata keçirilən regional, beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Cənub qaz dəhlizi"nin və onun tərkib hissələri olan TANAP, TAP layihələrinin, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin, Bakı beynəlxalq dəniz ticarət limanının və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsinin ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığının və bu gün artıq beynəlxalq nəqliyyat qovşağına çevrilməsinin göstəricisi olduğu vurğulanıb.

Tərəflər Azərbaycan ilə Serbiya arasında dövlət və hökumət başçıları səviyyəsində daimi əsasda davam etdirilən siyasi dialoqun müstəsna rolunu önə çəkiblər. Qeyd olunub ki, bugünədək iki ölkə arasında 31 sənədin imzalanması və bir sıra sazişlərin baxılmaqda olması əməkdaşlığın davamlı şəkildə inkişaf etdirilməsindən xəbər verir. O cümlədən strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının ölkələrimiz arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəyi bildirilib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar prosesi, həmçinin Kosovo və Metoxiya məsələsi, bölgədə baş verən son hadisələrlə bağlı fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, Azərbaycan Respublikası ilə Serbiya arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın fəaliyyəti və biznes forumlarının təşkilinin ikitərəfli əməkdaşlığın zəngin potensialından daha səmərəli şəkildə faydalanmağa əlavə təkan verə biləcəyi barədə ümumi fikirlər səsləndirilib.

Aparılan fikir mübadiləsi zamanı Azərbaycan və Serbiyanın BMT və digər müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının və qarşılıqlı dəstək göstərilməsinin perspektivləri müzakirə olunub və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə dair razılıq ifadə edilib.

Görüş əsnasında ikitərəfli və çoxtərəfli gündəliyə aid digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Daha sonra Azərbaycan nümayəndə heyəti Serbiya parlamentinin sədr müavini Vladimir Marinkoviç ilə görüş keçirib. Görüşdə ölkələrimizin parlamentləri arasında fəal əməkdaşlığın olduğu, qarşılıqlı səfərlərin intensiv xarakter daşıdığı məmnunluqla ifadə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin Belqrad şəhərindəki "Taşmaydan parkı"nda ucaldılmış abidəsini ziyarət edib, önünə əklil qoyub və xatirəsini ehtiramla yad edib. Bundan başqa, nümayəndə heyəti görkəmli serb yazıçısı Milorad Paviçin abidəsini, 1999-cu ildə NATO bombardmanları zamanı həlak olmuş uşaqların xatirəsinə həsr olunan "Biz sadəcə uşaqlar idik" abidəsini də ziyarət edib.

Sonra nümayəndə heyəti Serbiyanın Belqrad Universitetində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzində, səfirlikdə və Belqraddakı Azərbaycan Mədəniyyət Mərkəzində olub, Serbiyadakı Azərbaycan icması ilə görüşüb.

# Uzaq, yaşıl adanın əbədi aşiqi

◆ Unudulmazlar

**"...Onun ölümündən sonra zaman, həyat dayandı sanki mənim üçün. Qarşıma bir sonsuzluq çıxdı. Dedilər, gəl, yaşa o sonsuzluqda... Əslində, mən bugünkü günlə yaşayan insan idim. Elə Vaqif özü də. Amma indi başını arxaya çevirib yaşamalısan. Onun olmadığı məkanda... Mən bir şeyi başa düşdüm ki, onun yoxluğunun gücü varlığından daha güclü imiş... İndi mənə elə gəlir, sanki iki insan arasındayam. Biri məni evdə gözləyir - həmişəki kimi. Birini də mən gözləyirəm - bilirəm, mütləq gələcək. Və bu iki insan arasında da ömrümü başa vurmalıyam..."**

**Gözlərim sol qolundakı saata və nişan barmağındakı üzüyə sataşır. Vaqif Səmədoğlunundu ikisi də. Əşyaların cinsi olmur axı... Onları qolundan, barmağından çıxarmır heç xanımı. Sanki onlardan güc alır. Sanki o əşyalar vasitəsilə Vaqif əlindən tutub saxlayır ki, yıxılmasın, ayaqda qalsın... Saat işləyir. Zaman dayanmadan öz axarı ilə gedir. Əqrəblər yeni vaxtı göstərir. Amma Vaqifin olmadığı vaxtı...**



Təqvimdə 5 iyun 2019-cu ildir. Onun günüdür. Uzaq, yaşıl adanın sakininin... Yaşasaydı, 80 illik yubileyini qeyd edəcəkdik xalq şairi, dramaturq və publisist, əməkdar incəsənət xadimi, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli Vaqif Səmədoğlunun. "Unudulmazlar" rubrikasında yazdığı şeirlərində daim yaşayan şairi anacağıq həyat yoldaşı, Səməd Vurğunun ev-muzeyinin direktoru Nüşabə Vəkilovanın xatirələrində və göz yaşlarında...

❖ ❖ ❖

Təqvimdə 5 iyun 1939-cu ildir. Həmin gün Azərbaycanın görkəmli şairi Səməd Vurğunun ailəsində üçüncü övlad sevinci yaşanır. Adını Vaqif qoyurlar. 2 il əvvəl atasının yazdığı "Vaqif" dramındakı obrazın - Molla Pənah Vaqifin şərəfinə. Adı isə həm də taleyini müəyyənləşdirir. Demə, elə bu Vaqif də gələcəkdə böyük şair olacaqdı...

Vaqifə pianoda ilk notları göstərən musiqi təhsili almış anası Xavər xanım olur. Atası isə onu indiki Bülbül adına orta ixtisas musiqi məktəbinə yazdırır. Musiqi məktəbi çox nüfuzlu təhsil ocağı idi deyə tanınmış şəxslərin əksəriyyəti övladını ora yazdırırdı. S.Vurğun Yusiflə Aybənizi də bu musiqi məktəbinə qoymuşdu. Amma Vaqifdən fərqli olaraq, onların ikisi də orada axıra qədər oxumadılar.

Ədəbi-mədəni mühitdə böyüyən Vaqif uşaqlıqdan evlərində ailəsinin ünsiyyətdə olduğu və dostluq etdiyi tanınmış musiqiçiləri, yazıçıları, şairləri, rəssamları görür. Hər şeyi öyrənmək, bilmək marağı, musiqiyə, kitablara olan həvəsi onu kamil gənc kimi yetişdirir. Vaqif musiqi məktəbini əla qiymətlərlə bitirir. Mükafat olaraq filarmoniyada maestro Niyazinin rəhbərlik etdiyi simfonik orkestrlə S.Raxmaninovun 1-ci konsertini ifa edir. Elə həmin il də Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano sinfinə daxil olur. Çaykovski adına Moskva Konservatoriyasında ixtisas kursu keçəndən sonra Bakıya qayıdır və konservatoriyada fortepiano müəllimi işləyir. Paralel olaraq Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyasında incəsənət şöbəsinin müdiri olur.



8 il sonra fortepiano müəllimi kimi fəaliyyətini dayandırsa da, Vaqifin musiqi janrının bütün sahələrini professional səviyyədə mənimsəməsi, klassiklərə ehtiramı, modern cazı dərindən bilməsi və fortepianoda gözəl ifası yaradıcılığından yan keçmir və o, ömrünün sonuna kimi musiqi ilə nəfəs alır. 80-ci ilin ortalarında AzTV-də "Caz klub" verilişinin əvəzsiz aparıcısı kimi Vaqif Səmədoğlu caz musiqisinin Azərbaycanda təbliğində böyük rol oynayır.

Seçimini sonradan ədəbiyyat xeyrinə edən Vaqif Səmədoğlu 1970-ci illərin əvvəllərində C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenarist, 1978-1982-ci illərdə "Yazıçı" nəşriyyatında redaktor və 1982-1985-ci illərdə kinostudiyada kinoaktyor teatrının ədəbi hissə müdiri işləyir. 1992-1994-cü illərdə Azərbaycan yazıçılarının müstəqil qəzeti olan "Oğuz eli"nin baş redaktoru olur. 80-ci illərin sonlarında Azərbaycanın müstəqilliyi uğrunda gedən Milli Azadlıq mübarizəsində fəal iştirak edir. Ölkəmiz müstəqillik qazandıqdan sonra Milli Məclisin deputatı və Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinin üzvü seçilir.

## "Kənarda dayanıb, o evə baxırdı..."

Nüşabə Vəkilovanın sözlərinə görə, Vaqif müəllim uşaqlıq xatirələrindən çox danışardı. Deyərdi, "uşaqlıq xatirəsi nə qədər güclüdürsə, şair də bir o qədər güclüdür. Vay o gündən uşaqlığından uzaqlaşdın, onda gərək qələmi yerə qoyasan".

*... qucağına al uşaqlığını*
*beş-on dəfə öp üzündən-gözündən*
*sonra get, get...*
*dönüb baxma geri*
*baxma, arxanda qalıb ağlaya-ağlaya*
*"məni də apar, məni də apar"*
*bağıran uşaqlığına*



- İndi Səməd Vurğunun ev-muzeyi yerləşən mənzilə 1954-cü ildə köçmüşdülər. Vaqifin 15 yaşı olanda. Amma Vaqif keçmiş Fialetov küçəsindəki evlərini çox sevirdi. Uşaqlığı və yeniyetməliyi orada keçmişdi. Həyətdə uşaqlarla futbol oynayar, velosiped sürərdilər. Bir dəfə danışmışdı ki, qonşuluqlarında Lyalya adında qız vardı. Baletlə məşğul olurdu. Həyətdə birlikdə oynayardılar. Bəlkə də hansısa arzuları varmış. 8 yaşları olanda Vaqif yayda ailəsi ilə Kislovodska gedib. Ordan qıza hədiyyə etmək üçün farfordan kiçik balerina heykəlciyi də alıb. Qayıdıblar Bakıya. Artıq dərslər də başlayır. Lakin qız hələ də gəlib çıxmır. Bir gün görür ki, həyət qapılarının qabağına çoxlu adam yığılıb. Qızın evinin qapıları da açıqdı. Vaqif onların evinə getmək istəyəndə anası Xavər xanım qoymur. Deyir, "Lyalya yoxdu artıq". 1948-ci ildə Aşqabadda baş verən güclü zəlzələdə o qız da ölübmüş. Bu ölüm balaca Vaqifə çox pis təsir etmişdi.

Neçə dəfə getmişdik o küçəyə. Kənarda dayanıb, o evə baxırdıq. Deyirdi, gəl, gedək evə baxaq. Deyirdim, gedək. Amma nədənsə getmirdik. "Sonra gələrik", - deyib ertələyirdi. İndi onu özümə bağışlaya bilmirəm ki, niyə onu getməyə məcbur etmədim? Ümumiyyətlə, uşaqlıq xatirələrinə Vaqif qədər ciddi yanaşan az adam tapılar. Uşaqların keçirdiyi tənhalıq hissini böyüklər anlaya bilməz. O yaşda aldığın zərbə, keçirdiyin sarsıntı insanın bəlkə də bütün gələcək həyatına öz təsirini göstərir. Çox kövrək, həssas insan idi Vaqif. Hər xırda detal belə, onu incidərdi. Amma üzə vurmurdu, içinə salırdı. Bütün haqq-hesabı içində çəkirdi. İçində danışdıqlarını da şeirə, kağıza köçürürdü.

## "İndi öz xanımım mənim dayağım olub..."

Təqvimdə 1968-1972-ci illərdir. Vaqif Səmədoğlunun "Yoldan teleqram" və "Günün baxtı" adlı iki kiçik şeirlər toplusu böyük çətinliklərdən sonra qısaldılmış şəkildə, məhdud tirajla çap olunur. Onun ədəbiyyata gəlişi bir hadisəyə çevrilir. Şeirləri əl-əl gəzir, əzbərlənir, başqa dillərə tərcümə edilir. Lakin şeirləri forma, obraz və mövzu cəhətdən sovet ideologiyasıyla uzlaşmadığı, atası kimi yazmadığı üçün şair rəsmi tənqidin mühafizəkar hücumlarına məruz qalır. Bundan sonra o, yazdıqlarını üzə çıxarmamaq qərarı verir.



*Şeirlərimi yazan kimi*
*unutmaq istəyirəm,*
*elə bil kağıza yox,*
*nəyinsə başdaşına*
*həkk olunur sözlərim...*

Öz poetik dünyasına sadiq qalaraq yaza-yaza susmağı seçir Vaqif Səmədoğlu. "Susan şair" ifadəsi də onun ədəbi taleyinin rəmzinə çevrilir. Bu, həm də onun protesti idi. Çap olunmamaqla o, özünü sovet senzurasının təzyiqlərindən qorudu. Bir şair kimi öz ideya, fikir azadlığını qoruyub saxlaya bildi. Və nə vaxtsa yazdıqlarının üzə çıxa biləcəyi ümidinin çox cüzi olmasına baxmayaraq, sınmadan, yorulmadan, usanmadan hər gün yazdı... Zaman öz işini gördü. Təqvimlərin vərəqləri günbəgün, aybaay, ilbəil dəyişdi. Lakin o gün nəhayət, gəlib çıxdı. Düz 24 il sonra...

Təqvim 1996-cı ili göstərirdi. Həmin il Vaqif Səmədoğlunun yeni şeirlər kitabı çap olundu. Özü də həyat yoldaşı Nüşabə Vəkilovanın tərtibatı və redaktorluğu ilə.

- Vaqif Səmədoğlu öz iç dünyasında totalitar şüuru alt-üst edən, öz istiqlalını qazanan ilklərdəndi. O sübut etdi ki, şeirləri siyasi quruluşların, ictimai təsisatların, zamanın fövqündə durur. Dünyəvi və həmişəyaşardır. Unutmayaq ki, Vaqif özündən sonra məktəb yaratdı. Bir neçə nəsil gənc modernist şairlər üçün ədəbi məktəb oldu. Bu gün onu həqiqətən də sevən, poeziyasının vurğunu olan gənclər çoxdur. Mən Vaqifin tək həyat yoldaşı yox, həm də yaradıcılıq dostu oldum. "Mən burdayam, İlahi", "Uzaq, yaşıl ada" kitabları mənim tərtibatımla işıq üzü gördü. "Bəxt üzüyü" adlı pyeslər toplusunu, onun haqqında müasirlərinin dediklərini toplayıb 70 illiyinə hazırladığım "Şair və zaman" kitabını nəşr etdirdim. Sonra onun aforizmlərini "Müdriklərlə üz-üzə" adı ilə buraxdırdım. Buna görə həmişə mənə təşəkkür edirdi. Çünki bəzən başladığı işlərə həvəsi sönürdü, yaxud çox sonraya saxlayırdı. Bu iş ləng gedirdi. Özü axşamlar dəftərlərindəki şeirləri yazı makinasında çap edirdi. Qərara gəldim ki, ona kömək edim. İlk dəfə şeirlərini kompüterdə yazmağa başlayanda gəlib gördü və çox sevindi. Qapının ağzında dayanıb gülümsündü. Dedim, "Vaqif, mən çap eləyirəm, olar?" Tez cavab verdi: "Əlbəttə, olar. Ömrüm boyu rus yazıçılarına qibtə eləmişəm ki, xanımları onlara necə dayaqdır, köməkdir, indi öz xanımım mənim dayağım olub. Bu, mənim çoxdankı arzum idi".

## "Xoşbəxt qadınam ki, yanımda Vaqif kimi şair olub"

Birlikdə yaşadıqları 20 il ərzində Nüşabə xanım Vaqif müəllimi yaradıcı insan kimi anlamağa, dəstək olmağa çalışıb. Halbuki tanış olanda nəinki yaradıcılığına bələd idi, bir şeirini belə oxumamışdı. Bircə "Bəxt üzüyü" pyesinin adını eşitmişdi, ancaq tamaşasına da baxmamışdı. Və bu fakt Vaqif Səmədoğlunun xoşuna gəlmişdi nədənsə - "Bu, lap yaxşıdı ki..." İndi o günlərə yenidən qayıdır Nüşabə xanım. İlk tanışlıqlarını dünən olmuş kimi xatırlayır gülümsəyərək.

Təqvimdə 1988-ci ildir. Nüşabə xanım iki il Əfqanıstanda tərcüməçi işləyəndən sonra Bakıya qayıdaraq, Şərqşünaslıq İnstitutunda işə başlayıb. Vaqif Səmədoğlunun əmisi oğlu Cavanşir də onlarla bir yerdə işləyir.

- Bir gün Cavanşir ədəbiyyat ensiklopediyası gətirmişdi, oturub baxırdıq. Vaqifin şəklini göstərib dedi ki, bax, mənim əmim oğludur. Dedim, tanıyıram, qardaşımla bir yerdə "Caz klub"da işləyiblər. Cavanşir dedi ki, gəl, səni onunla tanış edim, sizinki tutar. "Boş-boş danışma", - deyib uzaqlaşdım. Arxadan səsləndi ki, onsuz da kiminləsə ailə qurmalısan da, yaxşısı budur sizi tanış edim, bir-birinizə yaraşırsınız. Mayın 2-də Cavanşir zəng elədi ki, televizorda "Bəxt üzüyü" kinosu gedir. Kinoya bax, sonra Vaqif sənə zəng eləyəcək, heç olmasa danışmağa mövzun olsun. Oturub kinoya baxdım. Kino qurtaran kimi Vaqif zəng elədi. Axşam saat 11-dən səhər saat 5-ə qədər danışdıq. O gündən zənglərimiz, söhbətlərimiz, görüşlərimiz başladı. O tarixi biz həmişə qeyd edirdik...



*Bir-birlərini tanıdıqca aralarındakı sevgi də böyüməyə başlayır. Düşüncə tərzi, dünya görüşü baxımından bir-birlərini tamamladıqlarını görürlər. Beş il münasibətləri bu axarla davam edir. Ancaq evlilik məqamına çatanda ayrılırlar.*



*Mənə sevib ayrılmağa*
*Bir qadın verin...*
*Ürəyimdə bir ayrılıq qəribsəyib*
*Və bu ayrılıqdan bir şeir...*

- Ayrılmağımızın əsas səbəb o idi ki, mən qəti addım atmağa ehtiyat edirdim. Vaqif anası ilə yaşayırdı, mən də ata-anamla. Yenidən sıfırdan başlamaq, evliliyə qərar vermək çətin idi. Birdən ikinci dəfə də ailə münasibətim alınmazdı... Ayrılıq həm də bir sınaqdır. Hisslər həqiqətən güclüdürsə, demək, yenidən qayıdacaqsan. Beş ildə iki dəfə belə sınaq keçdik. İkinci sınağın müddəti il yarım çəkdi. Ayrılmışdıq, amma onu fikrimdən çıxarda bilmirdim. Artıq qərara almışdım ki, xaricdə yaşayan qohumlarımızın yanına gedim. Bir gün bacımla küçədə gedərkən Vaqiflə üz-üzə gəldik. Vaqif diksindi elə bil, amma adi, köhnə tanışlar kimi "salam, necəsən"lə kifayətləndi və hərə öz yoluna davam etdi...

*Təqvimdə 1994-cü ilin son günüdür. Yeni il axşamıdır. Nüşabə xanım kefsiz halda otağında uzanıb. Birdən anası otağa girir, təəccüb dolu nəzərlərlə qızına baxaraq qonağı gəldiyini deyir. "Kim?" - deyə Nüşabə xanım da eyni təəccüblə soruşur. Onun adını eşidəndə saçı-başı qarışıq özünü otaqdan dəhlizə atır. Vaqifin qapının ağzında dayandığını görür. Yaxınlaşan kimi Vaqif Nüşabəni elə anasının yanında bağrına basıb deyir: "Bunsuz burdan gedən deyiləm". O gündən sonra ikisi də anlayır ki, daha bir-birlərindən ayrı qala bilməzlər...*



*Ürəyim yol çəkir bir gözə dönüb,*
*Yollar da tərs kimi uzanır, gülüm.*
*Yuxumdan hər gecə durnalar keçir,*
*Bilmirəm nə olub, haradan bilim?!*
*Belə getsə, sınar quşların səsi,*
*Dənizin də səsi günbəgün batar.*
*Yubanma, əzizim, gəl qurtar məni,*
*Arxadan dərd çapır, qorxuram çata...*
*Halıma yanan gərək səsin düşəndə yada,*
*Ötən günləri qoru, yaxşı bax, vermə bada...*
*Ayrılıq bir dəniz imiş, sən uzaq yaşıl ada...*

- Sonralar mənə danışdı ki, "oturub dostlarla yeyib-içirdik, birdən elə bildim səni itirirəm, elə bu an gəlməsəm yanına itirəcəyəm səni, bəlkə də artıq itirdim deyə düşündüm və qalxıb gəldim". Həmişə də məni ayrılmağımıza görə qınadı ki, sənə görə neçə ilimizi itirdik. Elə həmin il martın əvvəlində Xavər xanım və Aybəniz xanım bizə üzük gətirdilər. Martın 16-da isə heç kimə demədən nikah kəsdirdik. Beləcə, ailə qurduq. Evlilikdən sonra yaradıcılığı ilə nəinki tanış oldum, hətta ona bu yöndə yardım etdim. Kitabını çapa hazırlaya-hazırlaya poeziyasına baş vurdum və bütün şeiriyyətini sevdim. Hiss etdim ki, sevmək öz yerində, amma mən bu adama lazımam, mənə ehtiyacı var. Təzə evlənən vaxtlar boş-boş şeylərin üstündə küsürdük, daha çox Vaqif küsərdi. Hətta elə olub ki, qapını çırpıb gedib, düşünüb-daşınıb qayıdıb. Bir də görürdün halı dəyişib, tutulub. Öz-özümə deyirdim görəsən noldu, nə dedim. Xüsusən də təzə evlənəndə olurdu. Anlamırdım, başlayırdım özümdən şübhələnməyə. 7 ildi tanış olsaq belə, bir dam altında yaşamaq ayrı şeydi. Yavaş-yavaş başladıq bir-birimizi tanımağa, alışmağa. Onun halbahal olması əvvəl mənə qəribə gəlirdi, sonra başa düşdüm, hər şeyi özüm üçün ayırd etdim. Fikirləşdim ki, mən də onu başa düşməsəm, kim başa düşəcək? Mən də onun başını tumarlamasam, kim edəcək? Onda mən nəyə lazımam?! Sevdiyin insanı başa düşmək və hər şeyi keçmək lazımdı. Aramızda söz-söhbət olanda da ilk addımı mən atırdım. Çünki onun həyatında elə məqamlar olub ki, çox böyük tənhalıq keçirib. O hisslərini bilirdim və çalışırdım özünü tək hiss eləməsin. Hər sözümdə, hərəkətimdə ona arxa olduğumu duysun. Həmişə çalışmışam Vaqifin ürəyi nə istəyirsə, onu həyata keçirim. Həyatımda yeganə insandır ki, xətrinə dəyə, incidə bilmirdim. Nazıyla oynayırdım. Əsas o idi ki, mən bildim kimlə yaşayıram, arxamda kim var. Sən bu insan üçün yaşayırsan. Və o da öz ömrünü sənə bağışlayıb. Artıq müəyyən dövrdə hiss edirsən ki, siz bir insansız. Mənim ən böyük qələbəm onun etibarını qazanmağım idi. Həm qadın, həm dost kimi... Mənə yazılarını, əsərlərini etibar edirdi. Vaqif kimi şair və böyük şəxsiyyətlə ömür sürdüyüm üçün xoşbəxtəm.

## "Bu, birgə çıxardığımız son kitab idi"

Bu il beşinci doğum günüdür ki, Vaqifsiz qeyd edirlər. Xanımı ənənəsinə sadiq qalaraq bu il də şairin yaradıcılığına öz töhfəsini verib. Vaqif Səmədoğlu Mərkəzini təsis edib. Mərkəz xalq şairinin yaradıcılığı ilə məşğul olan şəxslərə medallar təqdim edəcək. İyunun 7-də isə Azərbaycan Dövlət Filarmoniyasında Yazıçılar Birliyinin təşkilatçılığı ilə yubiley tədbiri keçiriləcək. Maraqlıdır, bəs Vaqif Səmədoğlunun sağlığında bu günü necə qeyd edirdilər? Nüşabə xanım ona hansı hədiyyələri alırdı?

- Biz evlənməmişdən öncə Vaqif doğum günlərini xüsusi qeyd etmirdi. Ümumiyyətlə, təmtəraq adamı deyildi. Biz evlənəndən sonra başladıq evdə qeyd etməyə, yaxud hardasa gedib otururduq. Hər dəfə ona ürəyi istəyən, zövqünü oxşayan müxtəlif hədiyyələr alırdım. Bir dəfə oyuncaq maşın aldım ona. Bağışlayanda dedim, o gün olsun bu, böyük maşına çevrilsin. Həqiqətən də elə oldu. Həmin oyuncaq maşın indi də bağdadı. Bir də çalışırdım hər ad gününə bir kitab çap etdirim. 2013-cü ildə - hələ xəstəliyini bilmirdik - foto həvəskarı idi deyə fotolarından ibarət albom buraxmaq istədim. Dedi, kitab buraxmaq istəyirsənsə, qoy, deyimlərimdən ibarət kitab olsun. Tez bir zamanda aforizmlərini yığıb, "Müdriklərlə üz-üzə" kitabını buraxdım. Amma onun sevincini o qədər də yaşaya bilmədik. Çünki Vaqifin xəstəliyini bildik. Bu, birgə yaşadığımız dövrdə çıxardığımız sonuncu kitab oldu...

## Ömrün son çağları

*Vaxtsız ölsəm, çox yaşadı deyin.*
*Vaxtsız öldü, deyin, qoca ölsəm.*
*Bir il yatıb ölsəm, qəflətən öldü, deyin.*
*Uzun sürən xəstəlikdən sonra öldü, deyin,*
*qəflətən ölsəm...*

"Pis xəstəliyi" əvvəl şairdən gizlətmək istəyir Nüşabə xanım. Amma alınmır. Çünki Vaqif müəllim xəstəliyin gedişindən nə olduğunu bilmişdi artıq. Hətta sonradan necə cərəyan edəcəyini də deyirdi. Sanki xəstəliyin ssenarisini yazırdı. Axı atası, qardaşı da eyni azara yoluxmuşdu.

- Xəstələnəndən sonra siqaret aludəçiliyi artdı. Siqaret həyatının vacib, ayrılmaz bir hissəsinə çevrildi. Tez-tez markalarını dəyişirdi. Gah siqar, gah elektron siqaret aldı. Görünür içində nəyisə söndürmək, fikrini yayındırmaq istəyirdi. Özünü siqaretlərlə aldadırdı. Hər şeyi fikrindən uzaqlaşdırmağa çalışırdı. O an adamın bağrı çatlayır. Bilirsən bunu niyə edir və əlac tapa bilmirsən. Son nəfəsinə kimi də o siqaretlərlə "oynadı", çəkdi... Özü də nəyi hara qoyurdu gərək yerində qalaydı. Bir də görürdün ətraf köçür səliqəsizlikdən... İndi də əşyaları necə var idisə, elə də qalır. Hər şey özü qoyduğu kimidir. Hətta sonuncu dəqiqədə eynəyini çıxardı verdi. Sonra maraqlandı hara qoydum...



*Son gecədir bu gün yenə,*
*Sabah yenə son səhər.*
*Son yel dolur son yelkənə,*
*Qayıq üzür birtəhər...*
*Doğulur sonuncu insan,*
*Sonuncu insan ölür.*
*Yenə son dəfə ağlayan*
*Son dəfə gülən olur...*

Son gününü soruşuram şairin. Danışa bilmir xanımı. "Mənim üçün ən ağır mövzudu. Heç özüm də qələmə aldığım xatirələrimdə o günü yaza bilmirəm", - deyir. Vaqifli son günün acı xatirəsi, demək, danışmaq, yazmaq istədikləri gilə-gilə yaşa çevrilib, axır gözlərindən...

*... Sevgilim, mən öləndə,*
*Soraq sənə gələndə,*
*Düşmən gözü güləndə,*
*Ağla, olanım, ağla,*
*Ağla, qalanım, ağla,*
*Ağla, mən ölüm, ağla...*



Təqvimdə 28 yanvar 2015-ci ildir. Azərbaycan poeziyasında ölüm barədə ən çox yazan şairin bu həyatda son günü... Ömür yırğalanır ölümün beşiyində... Ölüm ən sədaqətli sevgili kimi onun vüsalını gözləyir. Ölüm yetim kimi durub qapı dalında... Küçələrdə isə külək əsir...

*Mən ölən gün*
*bir külək əsəcək küçələrdə.*
*Və yellədəcək*
*ipdən asılı,*
*quruyan sarı çiçəkli*
*bir uşaq paltarını.*
*Matəm bayrağıtək dalğalanacaq*
*uşaq paltarı*
*mən ölən gün...*

Amansız, insafsız xəstəlik 76 yaşında şairin ömrünə son qoyur. Və o, Fəxri xiyabanda torpağa tapşırılır. Amma məzarına nə başdaşı qoyulur, nə heykəl. Bir cüt ayaqqabı qoyulur, "ayağıyalın geyib getsin..."



- Vaqifin yoxluğunu hər gün, hər saat hiss edirəm. Onu necə unutmaq olar? Vaqif bu saat bu evdədi, öz kabinetindədi, əşyalarındadı, muzeydədi, büstündədi - hər şeydə, hər yerdə Vaqif var. Onun ölümündən sonra bu muzey mənim xilasım oldu. Başladım onun sevdiyi mahnılara qulaq asmağa, şeirlərini yenidən oxumağa. Sonra keçdim dəftərlərinə, gündəliklərinə. Oxuduqca sanki təzədən tanıdım Vaqifi, o illərini onunla birlikdə yaşadım və ah çəkdim ki, niyə yanımda deyilsən, Vaqif? O, tamamilə başqa adam idi - heç kəslə müqayisə olunmaz.... Qısası, necə ki yaradıcılığında qeyri-adi idi, eləcə də bütün yaradılışı başdan-ayağa qeyri-adi olub. Yəqin belə də olmalıydı. Çünki adi düşüncə tərzi olan insan o cür yaza bilməzdi...

4 ildir Vaqifsiz yaşayır. Vaqifin yoxluğuna alışaraq yaşamağı öyrənir. Hərdən elə bil heç getməyib sevdiyi - onu yanında, evində varmış kimi hiss edir... Hərdən də yuxularına gəlir. Yuxuda görüşürlər, dərdləşirlər...

*Yuxuda kimi görmüsən*
*bu gecə?*
*Gözlərində bir yalqız məzarın*
*kimsəsizliyi var.*
*Yum gözlərini,*
*gözlərinə baş çəkim,*
*bir dəstə gül qoyum gözlərinə.*

Amma Vaqif Səmədoğlu tək ömür-gün yoldaşı Nüşabə xanım üçün yox, elə bizim üçün də ölməyib. Özünün də dediyi kimi, o, nə dünənin, nə bu günün, nə də sabahkı cəmiyyətin şairi deyil. Sadəcə Vaqif Səmədoğludur. Şeirləri, əsərləri ilə daim ürəyimizdə, ədəbiyyatımızda yaşayacaq uzaq, yaşıl adanın əbədi aşiqi... Sevənlərinin yaddaşında şeir kimi əzbər qalacaq şair...

*Şair kimi yox,*
*şeir kimi ölmək istəyirəm...*
*Oxunmaq arzusuyla yaşayıram*
*əvvəldən axıra*
*kimi oxunmaq...*
*Əzbər qalmaq istəyirəm*
*kiminsə yadında!*

Vaqif Səmədoğlunun ən böyük əsəri isə elə onu "işıqdan zülmətə çıxaran", "taleyinin bəxt üzüyü", sevgilisi Nüşabə xanımdır. Vaqifin olmadığı vaxtı qoluna taxdığı saatla hər an xatırlayan, iki zaman ayrıcında yaşayan yarı... Şairlə birlikdə yaşadığı müddətdə özü də söz sərrafına çevrilən, Vaqifinə "Xatirə" yazan gözüyaşlı qadın...



*Dayandı vaxt, dayandı baxt...*
*Dünya kiçildi, yadlaşdı ətraf...*
*İndi gəl yaşa, ümidsiz, inamsız,*
*bu sıxılmış məkanda.*
*Üzünü arxaya,*
*dünənə çevirmiş məhəbbətinlə.*
*İki zaman ayrıcında vurnuxa-vurnuxa:*
*keçmiş və indiki...*
*Dünəni bu gün yaşamaq...*
*Yaşamaq, yaşatmaq...*
*Sənin yoxluğundan bir Sən toxumaq.*
*Sənin xatirələrindən, yazılarından, əşyalarından...*
*Bugünümün ən sadiq, ən etibarlı həmdəmlərindən...*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

*Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.*

**İlham ƏLİYEV**



GILAN HOLDING

Azərbaycan xalqını

Ramazan bayramı

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və süfrələrinizə ruzi-bərəkət arzulayır!

ALLAH DUALARINIZI QƏBUL ELƏSİN!

# Gənclər Fondunun Müşahidə Şurasının iclası keçirilib

İyunun 4-də Azərbaycan Respublikası Gənclər Fondunun Müşahidə Şurasının cari ildə ikinci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda fondun Müşahidə Şurasının gündəliyi müzakirə edilib, gənclərin məşğulluq, xaricdə təhsil, "GəncLik" və "YayFest" proqramları barədə fikir mübadiləsi aparılıb, 2019-cu ilin birinci yarısında görülmüş işlər barədə hesabat məruzəsi dinlənilib.

Sonra Gənclər Fondunun cari il üçün fəaliyyət planı müzakirə olunaraq təsdiqlənib. Həmçinin gənclər təşkilatları üçün XII qrant müsabiqəsinin mövzuları müəyyənləşdirilib və müsabiqənin elan olunması qərara alınıb.

İclasda Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Müşahidə Şurasının üzvləri - Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, mədəniyyət nazirinin müavini Rafiq Bayramov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyinin İdarə Heyətinin sədri Seymur Orucov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin icraçı direktorunun müavini Murad Ağabəyli və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin sədri Seymur Vəliyev iştirak ediblər.




# Özünüməşğulluq proqramının genişləndirilməsində Dünya Bankı ilə əməkdaşlıq həyata keçiriləcək



Azərbaycanda səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüş olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Sahil Babayev Prezident İlham Əliyevin sosial islahatlar proqramının yeni nailiyyətləri, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlar barədə M.Tembona məlumat verib. O, əmək, məşğulluq, sosial təminat sahələrində innovativ həllərin tətbiqinə əsaslanan idarəçilik və xidmət mexanizmlərinin formalaşdırılması, proaktiv xidmətlərin tətbiqi və genişləndirilməsi sahəsində görülən işləri diqqətə çatdırıb. Nazir aparılan islahatlarda Dünya Bankı ilə əməkdaşlığa xüsusi önəm verildiyini vurğulayıb, ötən dövrdə birgə reallaşdırılan layihələrin müsbət nəticələrini qeyd edib.

S.Babayev ölkəmizdə icra olunan özünüməşğulluq proqramının mühüm sosial-iqtisadi faydalarını diqqətə çatdırıb. O, Azərbaycanın bir sıra digər sosial layihələri ilə yanaşı, ötən ay bu proqramın da Beynəlxalq Sosial Təminat Assosiasiyasının xüsusi mükafatına layiq görüldüyünü deyib.

Nazir bildirib ki, aztəminatlı əhali qruplarının gəlir imkanlarının artırılmasına, onların kiçik sahibkarlığa çıxışına şərait yaradan özünüməşğulluq proqramına cəlb edilənlərinin sayı ötən il 6,5 dəfə artırılaraq 7267 nəfərə çatıb. Bu il isə proqrama 10 minədək işsiz və işaxtaran şəxsin cəlb edilməsi nəzərdə tutulub. Dünya Bankı ilə əməkdaşlıq imkanlarından istifadə olunmaqla gələn il üçün proqramın iştirakçılarının sayının 15 minə çatdırılması hədəflənib. Bu istiqamətdə birgə fəaliyyətin təşkili ilə bağlı Dünya Bankının nümayəndələri ilə səmərəli müzakirələr aparılır.

Xanım M.Tembon ölkəmizdə həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi sahəsində önəmli addımlar atılmaqla bərabər, bu qrupların səmərəli özünüməşğulluğuna, kiçik biznes imkanlarına yiyələnmələrinə şərait yaradılması üçün icra edilən özünüməşğulluq proqramının təqdirəlayiq olduğunu vurğulayıb. O, bu proqramın ildən-ilə daha çox ailəni əhatə etməsi üçün aparılan işlərdə Dünya Bankının dəstək vermək əzmində olduğunu qeyd edib.

Görüşdə özünüməşğulluq proqramının genişləndirilməsi layihəsi, bu sahədə əməkdaşlığın detallarına dair müzakirələr aparılıb.

# Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar ədalətli mövqe tutaraq işğalçıya öz yerini göstərməlidir

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller iyunun 4-də xocavəndli məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Beyləqan rayonu ərazisindəki Xocavənd qəsəbəsində olublar.

AZƏRTAC xəbər verir ki, Xocavənd Rayon İcra Hakimiyyətində keçirilən görüşdə qonaqlara Ermənistanın ölkəmizə qarşı təcavüzü, münaqişənin tarixi kökləri, Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsi, həyata keçirilən soyqırımı və etnik təmizləmə aktları, bir milyondan artıq soydaşımızın doğma yurdlarından qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı, işğal olunmuş Azərbaycan torpaqları tezliklə azad edilməli və öz vətənində məcburi köçkünə çevrilmiş bir milyondan çox insanın pozulmuş hüquqları bərpa edilməlidir. Bunun həyata keçməsi, regionda əbədi sülhün təmin olunması üçün isə dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar ədalətli mövqe tutaraq işğalçıya öz yerini göstərməlidir.

"Dünyanın güclü dövlətləri ATƏT-in üzvüdürlər. Bu dövlətlərin problemlə bağlı fəaliyyətlərinin heç bir real nəticəsi yoxdur. Nə qədər ki, Avropa dövlətləri erməni yalanlarına inanır, lazım gələndə ona dəstək verir, vəziyyət daha da gərginləşir. Biz münaqişənin sülh yolu ilə həllini istəyirik. İstəyirik ki, işğal edilmiş torpaqlarımız danışıqlar yolu ilə qaytarılsın. Lakin erməni tərəfi danışıqları uzadır, torpaqlarımızı işğal altında saxlayır və orada qanunsuz tikintilər aparır, məskunlaşma siyasəti həyata keçirir, terroristləri bu ərazidə yerləşdirir, dünya dövlətləri isə susur. Bizə deyirsiniz ki, müharibə olmaz, məsələ danışıqlar yolu ilə həll olunmalıdır. Danışıqlar isə uzanır, mənim torpağım hələ də erməni işğalındadır. Lakin bütün dünya bilsin ki, Azərbaycan xalqı öz torpaqlarının işğalı ilə heç vaxt razılaşmayacaq və hansı yolla olursa-olsun, ərazi bütövlüyünü təmin edəcək", - deyə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov bildirib.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi və onun səhra köməkçiləri ətraflı məlumat üçün təşəkkür ediblər.

# "DOST" mərkəzinə 5000-ci vətəndaş müraciəti qeydə alınıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyinin 1 saylı "DOST" mərkəzinə 5000-ci vətəndaş müraciəti qeydə alınıb.

AZƏRTAC xəbər verir ki, müraciəti paytaxtın Yasamal rayon sakini Zümrüd Şıxıyeva edib. Vətəndaş I dərəcə əlilliyi olan insana qulluq edən şəxs kimi ona Prezidentin aylıq təqaüdünün təyin olunması ilə bağlı "DOST" mərkəzinin xidmətindən faydalanıb. 5000-ci müraciətin sahibi olan Z.Şıxıyevaya bununla əlaqədar DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov tərəfindən təşəkkürnamə və simvolik hədiyyələr təqdim edilib. Z.Şıxıyeva dövlət sosial xidmətlərini "bir pəncərə"dən, operativ və şəffaf şəkildə təqdim edən belə bir mərkəzin açılmasından, burada ona göstərilən xidmətdən məmnun olduğunu vurğulayıb. 2019-cu il mayın 9-da açılışı olan 1 saylı "DOST" mərkəzi Bakı şəhərinin Yasamal və Səbail rayonlarının sakinlərinə xidmət göstərir. Mərkəzə hər gün 350-dən çox vətəndaş müraciəti qeydə alınır.

2019-2025-ci illər üzrə "DOST regional proqramı"na əsasən Bakıda və respublikanın regionlarında 31 "DOST" mərkəzinin açılması nəzərdə tutulub.

GCM GLOBAL ENERGY AZERBAIJAN

“Global Energy Azerbaijan” şirkəti və onun törəmə şirkətləri

“Absheron Operating Company”
“Binagadi Oil Company”
“Karasu Operating Company”
“Shirvan Operating Company”
“Neftechala Operating Company”

Azərbaycan xalqını Ramazan bayramı münasibətilə təbrik edir, hər bir ailəyə səadət və sevinc dolu günlər arzulayır!

AZPETROL

Ramazan bayramınız mübarək olsun!
“Azpetrol” şirkətinin rəhbərliyi və kollektivi

Ramazan bayramı münasibətilə Azərbaycan xalqını ürəkdən təbrik edir. Şirkət xalqımıza firavan həyat, sülh, əmin-amanlıq, xoşbəxtlik, ruzi-bərəkət və xoş gələcək arzulayır. Allah-təala tutduğunuz orucu, qıldığınız namazı və etdiyiniz duaları qəbul eləsin!



Ramazan bayramınız mübarək!

# *Məkkə bəyannaməsi:* “İslam dünyasının Azərbaycana böyük dəstəyi”

Bu gün islam ölkələrinə qarşı bir sıra dairələrin qərəzli və ikili standart mövqeyindən yanaşdıqları sirr deyil. Artıq islamofobiya mərəzinə tutulmuş bəzi ölkələr də üzə çıxıb. Bu proseslərin fonunda islam dövlətlərində müxtəlif təbiətli problemlərin meydana gəlməsi artıq daha geniş xarakterli trendə çevrilir. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) dövlət və hökumət başçılarının Məkkə şəhərində keçirilən zirvə toplantısı bu baxımdan ekspertlərin böyük marağına səbəb olub. İƏT-in yaranmasının 50-ci ildönümünə təsadüf edən toplantıda 57 ölkənin yüksəksəviyyəli nümayəndələri iştirak edib. Çin və İran prezidentləri toplantı iştirakçılarına məktub göndəriblər. Azərbaycanı Baş Nazir Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Yekunda Məkkə bəyannaməsi qəbul edilib. Sənəddə yer almış müddəaların işığında zirvə toplantısının geosiyasi aspektlərini təhlil etməyi lazım bildik.

## Qlobal geosiyasi proseslər və islam ölkələri: ziddiyyətlərin səbəbləri

İslam coğrafiyasında son illərdə geosiyasi proseslərin intensivliyi o dərəcədə artıb ki, hazırda onu qlobal siyasətin başlıca problemi adlandırırlar. Burada “problem” islam ölkələrinin hansısa qüsura malik olmasını deyil, böyük güclərin müsəlman sivilizasiyasına və dövlətçiliyinə obyektiv yanaşa bilməməsini ifadə edir. Onun konkret təzahürü isə islamofobiyanın getdikcə daha çox vüsət almasındadır. Qəribədir ki, dünyanın bir qrup güclü dövlətləri bu sadə həqiqəti qəbul edib, özlərinin islam aləminə münasibətlərini ədalət və demokratiya prinsipləri üzərində qurmaq əvəzinə müxtəlif bəhanələrlə vəziyyəti daha da mürəkkəbləşdirirlər. Bunun fonunda müsəlman ölkələrinin birgə fəaliyyət göstərməyə meyili daha da güclənir. İslam dövlətləri özlərini müdafiə etməklə bütövlükdə sivilliyi, mədəniyyəti, humanizmi müdafiə etmiş olurlar.

Vəziyyət ABŞ rəhbərliyinin Fələstin, Suriya, İraq, Liviya, Misir, Livan, Yəmən və İran məsələlərinə daha sərt müdaxilə etməsi ilə daha da qəlizləşməkdədir. İraqda artıq xeyli müddətdir ki, müharibə gedir, Suriya faktiki olaraq dağıdılıb, Fələstin problemini Vaşinqton daha da mürəkkəbləşdirib, İranla bağlı isə çox təhlükəli proseslər cərəyan edir.

Fələstin məsələsində Vaşinqtonun atdığı addımlar olduqca ciddi riskləri meydana gətirməkdədir. Qüdslə bağlı verilən qərar, Qəzzədə gərginliyin yüksəlməsi, qanunsuz tikililərlə bağlı İsrailin qəbul etdiyi qərar və Qolan təpələri haqqında Amerikanın məntiqsiz mövqeyi yeni təhdidləri və riskləri ortaya çıxarmaqdadır.

İslam ölkələri bütün baş verənlərə müəyyən münasibət bildirməlidir. Təəssüf ki, hələlik onlar arasında fikir birliyi yoxdur. Xüsusilə Səudiyyə Ərəbistanı-İran münasibətləri çox gərginləşib. Hazırda iki böyük müsəlman ölkəsi qarşılıqlı təhdidlərdən belə çəkinmirlər. Ərəb Dövlətləri Liqasının (ƏDL) son sammitində İrana qarşı fikirlərin səsləndirilməsi bu baxımdan təhlükələrin qalmaqda olduğunu göstərir.

Belə bir gərgin vəziyyətdə Məkkədə İƏT-ə üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısının keçirilməsi maraq doğurur. Tədbirdə 57 ölkədən dövlət və hökumət başçıları iştirak ediblər. Təşkilatın fəal üzvlərindən olan Azərbaycanı Baş Nazir Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Zirvə toplantısı İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz Al Səudun sədrliyi ilə keçirilib. Toplantının əsas şüarı “Əl-ələ gələcəyə doğru” olub. Toplantıda İslam dünyasının üzləşdiyi müxtəlif problemlər, o cümlədən müsəlman azlıqların problemləri, islamofobiya, terrorizm və ekstremizmlə mübarizə müzakirə edilib və digər siyasi, iqtisadi, mədəni, sosial məsələlər nəzərdən keçirilib.

Zirvə toplantısında Suriya, Yəmən və Liviyadakı vəziyyət, Sudan və Əlcəzairdə baş verən proseslər də müzakirə olunub. Müxtəlif ölkələrdə yaşayan müsəlman azlıqların hüquqları məsələsi gündəmdə olub. Tədbir iştirakçıları terror və ekstremizmlə mübarizədən, yoxsulluq və korrupsiyadan, sərmayələrin cəlb edilməsindən, iqlim dəyişikliyindən, məzhəblərarası münasibətlərdən və digər aktual problemlərdən bəhs ediblər. İslam ölkələrinin humanitar sahədə və insan hüquqları sferasında birgə fəaliyyəti məsələsinə də toxunulub.

## “Əsrin razılaşması”nın riskli tərəfləri

Zirvə toplantısının əsas müzakirə məsələsi isə Fələstin olub. Vaşinqtonun “Əsrin razılaşması” adlandırdığı və İsrail-Fələstin münasibətlərini yoluna qoymalı olan planı ciddi müzakirə obyektinə çevrilib.

İran Prezidenti Həsən Ruhani tədbir iştirakçılarına ünvanladığı məktubda Amerikanın planını Fələstin dövlətçiliyinin məhvi kimi xarakterizə edib. Bundan sonrakı addımın digər müsəlman ölkələrinə qarşı fəaliyyətin genişlənməsi olacağını ifadə edən H.Ruhani bu plana qarşı birləşmək lazım gəldiyini qeyd edib. “Əsrin razılaşması sui-qəsddir” deyən İran Prezidenti onu çox təhlükəli adlandırıb.

Vurğulayaq ki, Amerika planı fələstinlilərin İsrailin nəzarəti altında olan ərazilərdən imtinasını nəzərdə tutur. Bunun əvəzində Fələstinə iqtisadi yardım və ərəb dövlətinin yaradılması vəd edilir. Maliyyəni isə digər ərəb dövlətləri göstərməlidirlər. Fələstin dövlətinin bir hissəsi isə Sinay yarımadasında yaradılmalıdır. Ekspertlər bu planın bir çox aspektlərinin risklərlə bağlı olduğunu ifadə edirlər. Onun yerinə yetirilməsinin münaqişəni həll etmək əvəzinə yeni-yeni ziddiyyətlərə təkan verəcəyini deyirlər.

Burada daha çox digər dövlətlərin də öz istila siyasətinə haqq qazandıracağı narahatlıq yaradır. Əgər İsrail hərbi yolla tutduğu Fələstin ərazilərinə sahib olursa, başqaları da bu fikrə düşə bilərlər. Bununla dünya nizamında, beynəlxalq münasibətlərdə bir ciddi problem yarana bilər. Təcrübə göstərir ki, bu kimi ikili standartlardan daha çox müsəlman dövlətləri əziyyət çəkir. Ancaq Ukrayna, Moldova və Gürcüstanın da heç də şanslı olmayacağını proqnozlaşdırmaq olar. Bundan başqa, Avropanın tən ortasında Böyük Britaniya, İspaniya, Fransa və başqaları da ziyan görə bilərlər.

Belə çıxır ki, “Əsrin razılaşması” adlandırılan plan, əslində, qlobal geosiyasi mənzərəni mürəkkəbləşdirməyə səbəb ola bilər. İƏT-in bu məsələni qabartması, əlbəttə, təqdirəlayiqdir. Bununla yanaşı, həmin məsələ bütövlükdə tərəqqipərvər və sülhsevər dairələrin problemi olaraq qəbul edilməlidir. Bu baxımdan İƏT-in yekun sənədində Azərbaycanla bağlı müddəaların yer alması çox əhəmiyyətlidir. Bununla İƏT göstərir ki, əraziləri işğal edilmiş hər bir müsəlman ölkəsinin haqq səsini dünyaya yayacaq və ədalətin bərqərar olması, beynəlxalq hüquq normalarının təmin edilməsi istiqamətində fəaliyyətini davam etdirəcək.

Məkkə bəyannaməsi adlanan həmin sənəddə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü təşkilatın əvvəlki sənədlərində olduğu kimi, qətiyyətlə pislənib. Azərbaycan torpaqlarının güc yolu ilə tutulmasının BMT Nizamnaməsi və beynəlxalq hüquqa zidd olduğu qeyd edilib. Sənəddə xatırladılır ki, BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı dörd qətnamə (822, 853, 874 və 884 saylı qətnamələr) qəbul edib. Bu qətnamələr indiyə qədər yerinə yetirilməyib.

İƏT Ermənistan tərəfinin həmin qətnamələrə əməl etməsini tələb edib. Təşkilat təcavüzkar Ermənistanı öz silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və tam şəkildə, qeyd-şərtsiz çıxarmağa çağırıb. Sənəddə İƏT dövlət və hökumət başçılarının münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həllini zəruri hesab etdiyi xüsusi vurğulanıb.

Qlobal səviyyədə silahlanmadan narahatlıqların ifadə edildiyi indiki mərhələdə Azərbaycanın Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərində işğalçının davamlı silahla təmin edilməsi faktının da sənəddə vurğulanması çox əhəmiyyətlidir. İşğalçını silahla təmin edənlər faktiki olaraq təcavüzkara haqq qazandırır, onu himayə edir və ədalətə gəlməsinə əngəl törədirlər. İƏT bu məsələni diqqətdə saxladığını bəyan etməklə çox vacib bir addım atır. Bu baxımdan Baş Nazir Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin fəaliyyəti çox səmərəli olub.

Vurğulanan məqamlar prizmasından ərazilərin demoqrafik, mədəni və fiziki xarakterinin dəyişdirilməsinə yönəlik qeyri-qanuni fəaliyyətdən narahatlığın ifadə olunması da əhəmiyyətli haldır. Bununla İƏT Ermənistanın işğal etdiyi ərazilərdə qanunsuz rejimin ömrünü uzatmağa və havadarlarının fürsət verdiyi halda onları tam mənimsəməyə çalışdığı açıq göstərilib. Bu kontekstdə də mədəni irsin və müqəddəs yerlərin dağıdılması və mənimsənilməsi, ictimai və şəxsi mülklərə müdaxilə etməklə qanunsuz iqtisadi və digər fəaliyyətin davam etdirilməsi qətiyyətlə rədd edilməlidir.

Bunun fonunda isə İƏT-ə üzv olan ölkələrin işğalçıya hər hansı formada dəstək verməsinin qəbuledilməz olduğu vurğulanır ki, bu da tamamilə məntiqidir. Çünki İƏT ölkələri birgə səylə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çalışmalı və konkret fəaliyyət göstərməlidirlər.

Beləliklə, Məkkə sammiti Azərbaycan üçün çox uğurlu olub və onun nüfuzunun təşkilatda daha da yüksəldiyini təsdiq edib. Bu, Azərbaycan Prezidentinin fəaliyyətinin birbaşa nəticəsidir. Xarici siyasət kursu olduqca səmərəli və müasir tələbləri dəqiq nəzərə alaraq inkişaf etdirilir. Hər keçən gün Azərbaycanı qələbəyə yaxınlaşdırır!

***Newtimes.az***

# Zaqatalada keçirilən konfransda terrorçuluqla mübarizədə ictimaiyyətin rolu məsələləri müzakirə edilib





Müasir dövrdə terrorçuluq bütün dövlətlər üçün ciddi təhlükə mənbəyidir. Azərbaycan Respublikası terrordan zərər çəkmiş ölkələrdən biridir. Belə ki, təkcə Ermənistan tərəfindən ölkəmizə qarşı 373, o cümlədən nəqliyyat və kommunikasiya obyektlərində 32 terror aktı törədilib, 2 mindən artıq mülki şəxs ölüb və əlil olub.

AZƏRTAC xəbər verir ki, bu faktlar Dövlət Təhlükəsizliyi Xidmətinin Beynəlxalq Antiterror Təlim Mərkəzinin (DTX BATM) təşkilatçılığı ilə iyunun 4-də Zaqatala şəhərində keçirilən “Müasir dövrdə ölkəmizdə fəaliyyət göstərən pozucu qüvvələr” və “Terrorçuluqla mübarizədə ictimaiyyətin rolu” mövzularında regional elmi-praktik konfransda səsləndirilib.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə rayon rəhbərliyi, gənclər və qeyri-hökumət təşkilatlarının, elm, təhsil və mədəniyyət müəssisələrinin, həmçinin ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyətinin nümayəndələri və DTX-nin əməkdaşları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman vətən övladlarının xatirəsi də ehtiramla yad olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

DTX BATM-in rəisi Rəşad Camalov tədbiri açaraq konfransın məqsədi və mərkəzin əsas fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirilib ki, terrorçuluq dövlətlər üçün əsas təhlükələrdən biridir. Konfransın əsas məqsədi terrorçuluğa qarşı mübarizə, eləcə də təhlükəsizlik fəaliyyətinin digər sahələri ilə bağlı ictimaiyyətin maarifləndirilməsi və bu mübarizədə onun rolunun artırılmasından ibarətdir. R.Camalov dövlətin təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən bu məsələlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən daim diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

DTX-nin əməkdaşı Tural Məmmədov “Müasir dövrdə ölkəmizdə fəaliyyət göstərən pozucu qüvvələr” mövzusunda məruzəsində müasir dövrdə təhlükəsizliyi ciddi təhdid edən terrorizmə və radikalizmə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, təhlükəsizlik sahəsində əsas istiqamətlərdən biri kimi əks-kəşfiyyat fəaliyyəti ölkənin sosial-iqtisadi, elmi-texniki, hərbi və digər mühüm strateji əhəmiyyətli potensialının düşmənin kəşfiyyat-pozuculuq fəaliyyətinə, terror-təxribat əməllərinə qarşı yönəldilib. Əks-kəşfiyyat fəaliyyətinin əsas məqsədi ölkəmizdə yaşayan və buraya göndərilən casusların və təxribatçıların müəyyənləşdirilməsi, terrorçuların aşkar və ifşa edilməsi, ölkə daxilində xüsusi təhlükəli cinayət törətmiş və ya bunu həyata keçirməyə hazırlaşan şəxslərə qarşı mübarizənin aparılmasından ibarətdir.

Düşmənin xüsusi xidmət orqanlarının informasiya toplama üsulları barədə məlumat verən Tural Məmmədov bildirib ki, buraya açıq mənbələr olan KİV və internet resursları, dezinformasiya, gizli mənbələr - ölkənin daxilində yerləşdirilən casuslar və “vətən xainləri” aiddir.

Qeyd olunub ki, terrorçuluq cəmiyyətdə qorxu və vahimə yaratmaq, insanları öz iradəsinə tabe etdirmək, siyasi hakimiyyət orqanlarına təsir və təzyiq vasitəsidir.

Konfransda DTX-nin əməkdaşı Azər Əfəndiyev “Terrorçuluqla mübarizədə ictimaiyyətin rolu” mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, terrorçuluq, həmçinin onun nəticələri müasir dünyanın toqquşduğu əsas və daha təhlükəli problemlərdəndir. Müasir dövrdə terrorizm bir çox dövlətin təhlükəsizliyi üçün artıq ciddi təhdid təşkil edir. Onun qurbanı dövlətlər və insanlar ola bilər. Terrorizm müasir dövrdə ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif formalarda həyata keçirilən, daha hədələyici miqyas alan ciddi təhdidlərdən biridir. Terror aktları insan tələfatı ilə nəticələnir, geniş ictimaiyyətə güclü psixoloji təzyiq göstərir, dövlətlər arasında nifaq salır, müharibələrə, sosial və milli qruplar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur.

Qeyd olunub ki, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva gənclərin vətənpərvərlik ruhunda yetişmələri, onların vətənə və dövlətə sədaqət ruhunda tərbiyə olunmaları istiqamətində çoxsaylı proqram və layihələrin həyata keçirilməsinə daim xüsusi diqqət göstərirlər. Son illərdə yeniyetmə və gənclər arasında hərbi-vətənpərvərlik hisslərinin, milli-mənəvi dəyərlərə bağlılığın daha da güclənməsi məhz bu istiqamətdə görülən işlərin nəticəsidir. Lakin bu məsələdə hər bir vətəndaş ayıq-sayıq olmalı, görülən işlərə fəal töhfə verməlidir. Çünki düzgün və sistemli təbliğat işlərinin aparılmaması cəmiyyətdə ayrı-seçkiliyə və gənclərin yanlış istiqamətdə formalaşmasına gətirib çıxara bilər.

Çıxışlardan sonra Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyətini əks etdirən film nümayiş olunub.

Sonda Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə mühüm məsələlərə həsr olunan konfransın əhəmiyyətini yüksək qiymətləndirib, belə tədbirlərin bölgələrdə təşkilinə görə minnətdarlığını bildirib.

# Oksford Nizami Gəncəvi Mərkəzinin İdarə Heyəti Şurasının birinci iclası olub

**Bu il mayın 30-da əlamətdar hadisə baş verib - Oksford Universitetinin Şərqşünaslıq fakültəsində Azərbaycanın, Qafqazın və Mərkəzi Asiyanın öyrənilməsi üzrə Oksford Nizami Gəncəvi Mərkəzinin İdarə Heyəti Şurasının birinci iclası olub.**

Məlum olduğu kimi, Azərbaycanın dahi şair-mütəfəkkirinin adını daşıyan mərkəz 2013-cü ildə dünyanın ən qocaman və nüfuzlu universitetlərindən biri olan Oksford Universitetinin strukturunda Azərbaycanın, Qafqazın və Mərkəzi Asiyanın tarixinin, dillərinin və mədəniyyətlərinin öyrənilməsi məqsədilə yaradılıb və Azərbaycan, onun tarixi-mədəni irsi üçün xüsusi akademik əhəmiyyət kəsb edir.

Xatırladaq ki, düz bir il bundan əvvəl, 2018-ci il mayın 23-də Klarendon kollecində Oksford Universitetinin vitse-kansleri, professor Luiz Riçardson və professor Nərgiz Paşayeva tərəfindən imzalanmış sazişə əsasən, Oksford Universitetində onun ayrılmaz tərkib hissəsi kimi Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi daimi əsasda fəaliyyətə başlayıb. "Əsrin kontraktı" adlanan, mədəni, elmi və humanitar miqyaslı mühüm tarixi hadisə olan bu saziş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmişdi.

Həyata keçirilməsindən əvvəl çox böyük iş aparılmış Nizami Gəncəvi adına Mərkəzin İdarə Heyəti Şurasının birinci iclası da AXC-nin növbəti ildönümünə, onun sönməz ideallarına həsr edilib.

İclasda Mərkəzin İdarə Heyəti Şurasının üzvlərinin təsdiq edilməsi barədə çox mühüm qərar qəbul olunub. Şuraya aşağıdakı şəxslər daxil edilib:

**Edmund Xersiq** - Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun professoru, mərkəzin yaradıldığı ilk gündən etibarən onun daimi fəaliyyətinin təmin edilməsi üçün böyük səy göstərib;

**Aleksandr Morrison** - Oksford Universitetinin Humanitar Elmlər Şöbəsi Şurasının nümayəndəsi, universitetin Yeni Kollecinin elmi tədqiqatçısı, qlobal, imperiya, intellektual, siyasi və hərbi tarix üzrə mütəxəssis;

**Professor Kristofer Ceri** - Oksford Universitetinin Sosial Elmlər Şöbəsi Şurasının nümayəndəsi, Oksford qlobal və regional tədqiqatlar məktəbində Rusiya və Şərqi Avropa araşdırmaları üzrə direktor, Oksford Universitetinin Müqəddəs Antoni Kollecinin dekanı;

Azərbaycanın və Qafqazın öyrənilməsi üzrə Britaniya Fondu tərəfindən nominasiya edilmiş və Oksford Universitetinin Humanitar Elmlər Şöbəsi Şurası tərəfindən təyin olunmuş **professor Nərgiz Paşayeva** - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti və **professor Robert Qliv** - Ekseter Universitetinin (Böyük Britaniya) Ərəb və İslam Tədqiqatları İnstitutunda ərəb tədqiqatları məsələləri ilə məşğul olan mütəxəssis;

Şərqşünaslıq fakültəsinin Şurası tərəfindən nominasiya edilmiş iki üzv - Oksford Universitetinin Xəlili Elmi-Tədqiqat Mərkəzinin nümayəndəsi, İslam numizmatikası üzrə mühazirəçi **Lyuk Tredvel** və Oksford Universitetinin Brasenos Kollecinin elmi tədqiqatçısı, Azərbaycanın qədim Bərdə şəhərinin son antik və ilk islam dövrlərini tədqiq edən Bərdə arxeoloji ekspedisiyasının qrup rəhbəri doktor **Pol Vordvors.**

İclasın gündəliyinə bir sıra elmi layihələrin müzakirəsi daxil idi. Məsələn, 2021-ci ilin yayında Kral Coğrafiya Cəmiyyətində açılması planlaşdırılan, Odlar Yurduna həsr edilmiş möhtəşəm "İpək və Odlar Yurduna səyahət: Britaniya ilə Azərbaycanın görüşləri (1561-1918)" sərgisinin hazırlanması və təşkili. Daha bir layihə - professor Mir-Ənsari tərəfindən azərbaycanlı həmkarları ilə əməkdaşlıqda Nizami Gəncəvinin bütün dünya kitabxanalarında saxlanılan əlyazmalarının Toplu Kataloqunun tərtib edilməsi. Bu layihənin həyata keçirilməsinə təqribən 18 ay vaxt lazım gələcək. İclasda Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adının verilməsi (bu məsələ yuxarıda adıçəkilən 2018-ci il 23 may tarixli sazişdə də öz əksini tapıb), Oksford Universitetinin Şərqşünaslıq fakültəsində Azərbaycan dilinin tədrisi və bir sıra başqa aktual məsələlər müzakirə edilib.

Elmi Mərkəzin İdarə Heyəti Şurasının birinci iclasında Bərdədə aparılan, nəticələri Oksford Universitetinin alimlərinin hesabatlarında və məqalələrində əksini tapmış arxeoloji tədqiqatlarla bağlı məsələlər də müzakirə olunub. 2020-ci ildə "Brepols" nəşriyyatında "İslam dünyası sərhədində şəhər həyatı: Eramızın beşinci əsrindən sonra Bərdə və Arran əyaləti" adlı kitabın çap edilməsi, Bakıda və Oksfordda Bərdə arxeologiyasına aid dördillik işə həsr edilmiş iki seminarın (iki mərhələdə) keçirilməsi gözlənilir.

Qafqaz və Mərkəzi Asiya üçün Oksford Seminarının (TOSCCA) dəstəyi ilə konfrans və "dəyirmi masa"ların keçirilməsi, bir qayda olaraq, Oksforddan və kənardan tələbə və alimlərin geniş auditoriyasını cəlb edir. Nizami Gəncəvi adına Mərkəz (ONGC) tərəfindən dəvət olunmuş elmi əməkdaşların rezidentlər statusu ilə universitetin elmi həyatında iştirak etmək imkanı olmasından ötrü onlar üçün təqaüdlər də nəzərdə tutulub. Seçim komitəsi müraciətlərin aşağıdakı meyarlara uyğun olmasını nəzərdən keçirəcək:

planlaşdırılan tədqiqatın keyfiyyəti və onun Oksfordun tədqiqat resurslarına uyğunluğu;

planlaşdırılan tədqiqatın aparılması üçün namizədin ixtisas səviyyəsi və təcrübəsi;

nəzərdə tutulan tədqiqatın ONGC-nin məqsədlərinə nail olmağa potensial töhfəsi.

Dəvət olunmuş elmi əməkdaşların səfəri başa çatandan sonra onlar təqaüd proqramı müddətində məşğul olduqları iş haqqında hesabat təqdim etməli olacaqlar.

Nizami Gəncəvi Mərkəzinin fəaliyyətində tərcümə sahəsinə aid məsələlər mühüm yer tutur. Bununla əlaqədar 2016-cı ildə nəşr edilmiş Yevgeni Bertelsin "The Great Azerbaijani Poet: Nizami Ganjavi: Life, Work and Times" kitabını xatırlatmaq lazımdır. Bundan əlavə, tərcümələr və nəşrlər barədə bir sıra təkliflər daxil olub. Məsələn, Aləm Nuriyevin 2009-cu ildə rus dilində nəşr edilmiş kitabı (Alem Nuriyev, "Crafts of Caucasian Albania").

Mərkəzin İdarə Heyəti Şurasının üzvləri üç ildə bir dəfə seçilir. Qeyd edək ki, akademik Nərgiz Paşayeva Oksford Universiteti Elmi Mərkəzinin rəhbərliyinə (Management Board) daxil edilmiş ilk azərbaycanlı alimdir.

Bu tədbir barədə daha geniş məlumat Azərbaycanın, Qafqazın və Mərkəzi Asiyanın öyrənilməsi üzrə Oksford Nizami Gəncəvi Mərkəzinin İdarə Heyəti Şurasının birinci iclasının protokolunun hazırlanması başa çatandan sonra təqdim ediləcək.

*AZƏRTAC*




# Məktəblər arasında respublika çempionatının qalibləri mükafatlandırılıb

İyunun 4-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında məktəblər arasında respublika çempionatı qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Müvafiq qurumların əməkdaşlarının, Milli Məclisin deputatlarının, tanınmış idmançıların, təhsil müəssisələri rəhbərlərinin, müəllim və şagirdlərin iştirak etdikləri tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

AZƏRTAC xəbər verir ki, təhsil naziri Ceyhun Bayramov ölkəmizdə təhsilin və idmanın inkişafına xüsusi önəm verildiyini vurğulayıb. Təhsilin keyfiyyətinin yüksəldilməsində təhsilalanların sağlamlığının əhəmiyyətini qeyd edən nazir sağlam həyat tərzini təşviq edən layihələrin dəstəkləndiyini deyib.




Gənclər və idman naziri Azad Rəhimov idman sahəsində qazanılan uğurlardan danışıb, məktəblər arasında keçirilən respublika çempionatı ilə bağlı fikirlərini bildirib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idmanın inkişafında məktəb idmanının əhəmiyyətini qeyd edərək birgə əməkdaşlığın şagirdlər arasında Olimpiya hərəkatının təşviq edilməsində xüsusi rol oynayacağını söyləyib.

Azərbaycan Məktəb İdmanları Federasiyasının (AMİF) prezidenti Sevinc Hüseynova AMİF tərəfindən reallaşdırılan layihələrdən danışıb, gələcəkdə çempionat çərçivəsində keçirilən oyunlarda qalib məktəblərin komandalarının beynəlxalq yarışlarda iştirakına dəstək göstəriləcəyini bildirib.

Sonra qaliblər və çempionat çərçivəsində fəaliyyətlərinin qiymətləndirilməsi nəticəsində I, II, III yerlərə layiq görülmüş ümumtəhsil məktəbləri təltif olunub. Çempionatın ümumi nəticələrinə görə I yerə layiq görülən ümumi təhsil müəssisəsinə keçici kubok təqdim edilib.

Tədbirdə Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyası şagirdlərinin ifasında musiqi əsərləri səsləndirilib.

Qeyd edək ki, məktəblər arasında respublika çempionatı 2018-ci il sentyabrın 26-da imzalanan Təhsil, Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə əmri ilə keçirilib. Çempionatın keçirilməsində məqsəd ümumtəhsil məktəblərində oxuyan şagirdlərin sağlam həyat tərzinə istiqamətləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili, idmana marağının artırılması, məktəblərdə sağlam və fəal həyat tərzinin təşviqi, ümumtəhsil məktəblərinin idman sahəsində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsidir.

Çempionatın əsasnamə və proqramına uyğun olaraq yarışlarda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən rayon və şəhər ümumtəhsil müəssisələrinin şagirdləri şahmat (II-IV siniflər), atletika (V-VII siniflər), voleybol (qızlar, VII-IX siniflər), basketbol (oğlanlar, IX-XI siniflər) idman növləri üzrə iştirak ediblər. Ümumilikdə yarışlarda iştirak üçün 4 idman növü üzrə 2 min 397 məktəb, 202 min 248 şagird qeydiyyatdan keçib.

# Naxçıvanda "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi keçiriləcək



Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, iyunun 7-dən 11-dək Naxçıvanda "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimin sonuncu mərhələsi keçiriləcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikanın güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələrinin iştirakı ilə keçirilən təlimə 5 minədək şəxsi heyət, 200-dən artıq tank və zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil olunan müxtəlif növ müasir silah və hərbi texnika nümunələri cəlb ediləcək.

Təlimin məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və onların birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsinə nail olmaqdır.

# Bakıdakı 23 nömrəli tam orta məktəbin 85 illik yubileyi qeyd olunub

İyunun 4-də Yaşıl Teatrda Bakının Nəsimi rayonundakı 23 nömrəli tam orta məktəbin 85 illik yubileyi qeyd edilib. "Məktəbin dünəni, bu günü və sabahı" mövzusuna həsr olunan tədbirdə təhsil naziri Ceyhun Bayramov, Ukraynanın ölkəmizdəki səfiri Vladislav Kanevski, mədəniyyət və incəsənət xadimləri, təhsil işçiləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Yuliya Kərimova tədbiri açaraq təhsil müəssisəsinin zəngin pedaqoji ənənələrindən və uğurlarından danışıb. Bildirib ki, Bakı şəhəri 23 nömrəli tam orta məktəb, ilk növbədə, peşəsinə vurğun pedaqoji kollektivi və böyük uğurlar qazanmış məzunları ilə seçilir. Məhz bu amil məktəbin təhsil konsepsiyasında uğura nail olmasına imkan yaradıb. Təsadüfi deyil ki, bu məktəb təlim-tərbiyə prosesində həmişə qabaqcıllar sırasında olub, kreativ ideyaların və təşəbbüslərin reallaşmasında mühüm rol oynayıb. Dünya Təhsil İttifaqının Azərbaycanın Təhsil Nazirliyi ilə birgə beynəlxalq aləmdə savadsızlığın ləğvinə həsr edilmiş "Kitabların açılması qapıların açılması deməkdir" devizi altında keçirdiyi tədbir də məhz 23 nömrəli məktəbdə reallaşıb.





Yuliya Kərimova ötən 85 ildə təhsil ocağının keçdiyi şərəfli yol, onun pedaqoji kollektivi, yetirmələri haqqında da məlumat verib. Xatırladıb ki, məktəb 1995-ci ildən Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənovun adını daşıyır. Həmin il ümummilli lider Heydər Əliyev məktəbdə olub və qəhrəmanın barelyefi olan xatirə lövhəsini açıb. Yubilyar məktəbin məzunları arasında tanınmış adamlar - siyasətçilər, alimlər, memarlar, incəsənət xadimləri və başqaları var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 1981-ci ildə bu təhsil ocağını qızıl medalla bitirib.

Tədbirdə məktəbin tarixi və uğurları haqqında film nümayiş olunub. Məktəbin məzunları və şagirdləri ədəbi-bədii kompozisiya təqdim ediblər.

Mərasim konsert proqramı ilə davam edib.

# Azərbaycanın Xarici İşlər Nazirliyi Fransanın Serji-Pontuaz inzibati məhkəməsinin qərarını alqışlayır

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Fransa Respublikasının Serji-Pontuaz inzibati məhkəməsinin bu ölkənin Arnuvill şəhəri ilə Azərbaycanın işğal olunmuş Xocavənd rayonunun inzibati bölgələrindən biri arasında imzalanan 2018-ci il 22 oktyabr tarixli qeyri-qanuni "saziş"in ləğv olunmasına dair cari il 29 may tarixli qərarını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb.

Açıqlamada bildirilib ki, Azərbaycan ərazilərinin hərbi işğal altında saxlanılması, yüz minlərlə insanın zorla qovulduqları evlərinə geri dönüşünün qarşısının alınması, işğal olunmuş ərazilərdə qanunsuz iqtisadi və digər fəaliyyətin həyata keçirilməsi, bu gün bölgədə davamlı sülhə və təhlükəsizliyə ciddi təhdid olmaqla yanaşı, beynəlxalq hüququn prinsiplərinin tapdanmasıdır. Fransada, eləcə də dünyanın digər məntəqələrində yaşayan ermənilər anlamalıdırlar ki, bölgənin, ilk növbədə isə Ermənistanın gələcək inkişafı məhz ölkələr arasında normal qonşuluq münasibətlərinin yaradılması, işğalçılıq siyasətinə son qoyulması və beynəlxalq hüququn fundamental prinsiplərinə hörmətlə yanaşılmasından asılıdır. Yalnız münaqişənin həlli və iki ölkə arasında beynəlxalq tanınmış sərhədlər çərçivəsində suverenlik və ərazi bütövlüyünə hörmət prinsipləri əsasında davamlı sülhün təmin olunması Ermənistanın müstəqil və dayanıqlı inkişafının təminatı ola bilər. Bütün səylər müstəqil və davamlı inkişafa, tərəqqiyə və rifaha yönəldilməlidir, əksinə deyil.




# Transxəzər magistral layihəsi xarici medianın diqqətində

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkətinin Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi istiqamətində icra etdiyi "Azerbaijan Digital HUB" proqramı və proqram çərçivəsində həyata keçirilən Transxəzər magistral layihəsi xarici mətbuatın diqqətindədir.**




Transxəzər magistral layihəsi ilə bağlı Azərbaycan və Qazaxıstan arasında dövlətlərarası sazişin imzalanması və hər iki dövlət tərəfindən təsdiqlənməsi barədə xəbər Çinin Honqkonq şəhərində fəaliyyət göstərən və bu ölkənin qlobal "Bir Kəmər Bir Yol Təşəbbüsü" layihəsi barədə xəbər, təhlil, müxtəlif baxış bucaqlarının təqdim olunduğu "Belt and Road News" portalında verilib.

Məlumatda Transxəzər magistral layihəsi üzrə Azərbaycanla Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiberoptik magistral kabelin çəkilməsini nəzərdə tutan dövlətlərarası sazişin Qazaxıstan hökuməti, daha öncə isə Azərbaycan Respublikası tərəfindən təsdiq edildiyi, layihənin Azərbaycan tərəfdən ölkənin ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsi olan "AzerTelecom" şirkəti, Qazaxıstan tərəfdən isə telekommunikasiya operatorları olan "Transtelecom" və "KazTransCom" şirkətləri tərəfindən icra edildiyi qeyd olunur. Bildirilir ki, layihənin məqsədi Azərbaycan-Qazaxıstan marşrutu üzrə Avropadan Çinə qədər Azərbaycan və Qazaxıstandan keçəcək rəqəmsal telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək yolu) yaradılması, Orta Asiya və Çinə internet trafikinin ötürülməsidir. Layihənin Çinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" (BRI) layihəsinə də öz töhfəsini verəcəyi və Azərbaycanı "Belt and Road Initiative" (BRI) layihəsinin telekommunikasiya dəhlizinə çevriləcəyi qeyd olunur.

"Digital HUB" proqramına hazırda Asiya regionunun böyük dövlətləri tərəfindən dərin maraq var. Bu yaxınlarda Çinin paytaxtı Pekin şəhərində keçirilmiş "Bir Kəmər Bir Yol" 2-ci Beynəlxalq Forumu çərçivəsində "AzerTelecom" və Çinin telekommunikasiya nəhəngi "China Telecom" arasında bağlanmış Əməkdaşlıq barədə Memorandum da Çin şirkətlərinin bu layihəyə marağını göstərir.

Xatırladaq ki, "Digital HUB" proqramı özündə Azərbaycanın Qafqaz, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün rəqəmsal mərkəzə çevrilməsi, ölkədə milli rəqəmsal ekosistemin, innovasiya mühitinin inkişafını nəzərdə tutur. Proqramın reallaşması ölkənin Milli IT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, startapların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcəkdir. Proqram ümumilikdə ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaqdır.

***"Azərbaycan"***

# Azərbaycan uğurları ilə informasiya müharibəsində qalib gəlir

## *İlham ƏLİYEV:* "Biz öz siyasətimizlə bütün yalanları darmadağın edirik"

***Əvvəli 1-ci səh.***

Son olaraq Bakıda keçirilən UEFA Avropa Liqasının finalı ərəfəsində bu cür cəhdlərin şahidi olduq. 28 May - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda bu məsələyə toxunan Prezident İlham Əliyev ölkəmizin öz siyasəti ilə bütün bu yalanları və böhtanları darmadağın etdiyini bildirib: *"Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhtanları darmadağın edirik və etməliyik".*

Azərbaycanda həyata keçirilən siyasətin nəticələri isə göz önündədir. Məhz bu siyasətin nəticəsidir ki, ölkəmiz yuxarıda qeyd olunan nailiyyətlərin məntiqi davamı olaraq beynəlxalq tədbirlərin keçirildiyi unikal mərkəzə çevrilib. Son illərdə Bakıda ən mötəbər beynəlxalq tədbirlər baş tutub. Onların əksəriyyəti artıq ənənəyə çevrilərək hər il keçirilir. Son illərdə Rusiya ilə ABŞ arasında keçirilən yüksək səviyyəli hərbi danışıqlar üçün məkan olaraq Bakı seçilib.

Həyata keçirilən siyasətin nəticəsi olaraq respublikamız həm də bölgənin aparıcı turizm mərkəzinə çevrilib. Artıq hər il Azərbaycanı milyonlarla turist ziyarət edir. Bunun da əsas səbəbləri ölkəmizin sürətli yüksəlişi, müasir turizm və nəqliyyat infrastrukturunun yaradılması, hər bir xarici vətəndaşın burada özünü təhlükəsiz hiss etməsidir.

Təbii ki, bütün bunlar nəticə etibarilə Azərbaycanın son illərdəki möhtəşəm uğurlarıdır. Elə bu uğurlar da ölkəmizə qarşı aparılan bütün qarayaxma planlarını alt-üst edir. Azərbaycana ilk dəfə gələn xarici qonaqlar ölkənin gözəlliyini, təhlükəsiz bir yer olduğunu, insanların mehribanlığını görür və beləliklə, Azərbaycanla bağlı xoş təəssüratlar dünyaya yayılır. UEFA Avropa Liqasının finalında iştirak edən hər bir xarici qonaq da Bakıdan bu cür təəssüratlarla ayrıldı.

İlham Əliyevin qeyd etdiyi kimi, biz informasiya müharibəsində ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik. Bəli, Azərbaycan özünün müstəqil və qətiyyətli siyasətini aparır. Eyni zamanda, ölkəmiz sürətlə yüksəlir, inkişaf edir, bölgədə və dünyada söz sahibi kimi nüfuzunu artırır. Nəticə etibarilə Azərbaycanın uğurları informasiya müharibəsində antiazərbaycançı şəbəkəyə qalib gəlir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Zabit heyətinin təkmilləşdirilməsi kursu başa çatıb

Zabit heyətinin təkmilləşdirilməsi kursunun başa çatması münasibətilə keçirilən buraxılış mərasimi Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərasimdə zabit Mehman Gülməmmədov çıxış edərək, kurs zamanı ordunun Təlim-Tədris Mərkəzində müxtəlif ixtisaslar üzrə dərslər keçildiyini vurğulayıb. Bildirib ki, kursa cəlb edilmiş zabitlərin peşəkarlıqları real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da artırılıb.

Məzunlar söz veriblər ki, kursda qazandıqları yeni taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcək, ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev şəxsi heyəti təbrik edərək bildirib ki, peşəkar hərbçilərin yetişdirilməsinə xidmət edən digər kurslar kimi zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur. Kurslar zamanı hərbi qulluqçuların bilik, bacarıq və peşəkarlıqları daim artırılır. Təbii ki, bütün bunlar da hərb işinə verilən yüksək qiymətdən xəbər verir.

Sonra kursu uğurla başa vuran məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

# Dağlıq Qarabağın azərbaycanlı icması ermənilərə çağırış edib

## İşğal altında olan ərazilərimizdə xalqımıza məxsus tarixi və mədəni abidələrimizi dağıtmağa son qoyun!

**Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması erməni işğalı altında olan ərazilərimizdə məhv edilən tarixi, mədəni, dini irsimizlə bağlı daha bir çağırış edib.**

Ermənistan ictimaiyyəti üçün erməni dilində hazırlanan videoçarxda Bakıdakı erməni kilsəsinin vəziyyəti ilə işğal altında olan ərazilərimizdəki tarixi və mədəni




abidələrimizin vəziyyəti arasında paralellər aparılıb. Vurğulanıb ki, Azərbaycan Hökumətinin qərarı ilə erməni kilsəsi "Azərbaycandakı tarixi abidələrin milli qeydiyyatı" siyahısına daxil edildiyi halda, işğal altında olan ərazilərdə dini abidələrimiz məhv edilir. "Əfsuslar olsun ki, Azərbaycan dövləti belə bir addım atdığı halda, Ermənistan işğal etdiyi Dağlıq Qarabağ regionunda və ətraf rayonlarda xalqımıza məxsus izləri silməyə, tarixi abidələrimizi, məscidlərimizi, qəbiristanlıqlarımızı məhv etməyə çalışır. Ermənilər hətta XIX əsrdə Şuşada rus hərbçiləri üçün tikilmiş pravoslav kilsəsinin arxitekturasını dəyişərək özününküləşdiriblər. Azərbaycanda isə ermənilər də daxil olmaqla, digər etnik azlıqlara məxsus maddi və mədəni irs nümunələrinə hər zaman hörmət və qayğı ilə yanaşılır. Təsadüfi deyil ki, Azərbaycanda əsrlərdən bəri mövcud olan multikulturalizm və tolerantlıq ənənələri xalqımızın yaşam tərzinə çevrilib. İnanırıq ki, yaxın vaxtlarda biz öz torpaqlarımıza qayıdıb dağıdılmış tarixi, mədəni, dini abidələrimizi bərpa edərək onlara yenidən həyat bəxş edəcəyik" - deyə videoçarxda vurğulanır.

# Adı və dadı ilə tanınan Naxçıvan göycəsi



**Naxçıvan Muxtar Respublikasında aqrar sektorun dinamik inkişafı meyvəçiliyin də genişləndirilməsi ilə müşayiət olunur. Qədim Naxçıvan diyarı zəngin əkinçilik, o cümlədən meyvəçilik ənənələrinə malikdir. Bir çox meyvə sortlarının meydana gəlməsi məhz xalq seleksiyasının nümunələridir. Belə brend meyvə sortlarından biri Naxçıvan göycəsi sortudur.**

Bu sort muxtar respublika ərazisində yüksək dada, keyfiyyətə və əmtəə görünüşünə malik olur. Naxçıvan Muxtar Respublikasında 2016-cı ildən başlayaraq ənənəvi olaraq göycə festivallarının keçirilməsi milli-mənəvi dəyərlərimizə, əkinçilik mədəniyyətimizə, həmçinin müasir dövrdə meyvəçilik ənənələrimizə göstərilən diqqət və qayğının parlaq nümunəsidir.

2016-cı ildə keçirilən Göycə festivalında 70 torpaq mülkiyyətçisinin yetişdirdiyi 3 tondan çox, 2017-ci ildə 11 tondan çox, 2018-ci ildə 186 fərdi təsərrüfatçı tərəfindən ümumilikdə 12 ton 700 kiloqram məhsul ucuz qiymətə satılmışdır. Builki festivala 18 tondan çox göycə meyvəsi çıxarılmışdır.

Muxtar respublikanın kənd təsərrüfatında becərilən bir neçə meyvə sortu var ki, ancaq bu regiona məxsusdur. Belə meyvələrdən biri Naxçıvan göycəsidir. Çəyirdəkli meyvələrdən regionda alça növünün ağ alça, qırmızı alça, sarı alça və başqa sortları yayılmışdır. Naxçıvan göycəsi qədim Naxçıvan torpağında xalq seleksiyası sayəsində yaradılan brend məhsuldur. Naxçıvan göycəsi sortunun meyvələrinin yeyilməyə başlanması muxtar respublika ərazisində meyvə mövsümünün başlanmasından xəbər verir. Onu da qeyd edək ki, "göycə" sözü yalnız Naxçıvan dialektinə aiddir. "Göycə" sözündəki "göy" sözü yeni, təzə mənasını ifadə edir. Hələ VII əsrdə Naxçıvan bölgəsində olan səyyahların xatirələrində bu sort haqqında məlumatlara rast gəlinir.

Maraqlıdır ki, Naxçıvan göycəsi hazırda Azərbaycanın digər bölgələrinə yayılsa da, bu regionda, xüsusilə Araz su anbarı vadisində becərilən sortun meyvəsinin biomorfoloji xüsusiyyətləri, dadı, keyfiyyəti digər rayonlarda müşahidə olunmur. Regionda torpaq-iqlim şəraiti bu sortun tez böyüməsi, inkişafı, bol və yüksək keyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Əsasən düzən ərazilərdə Naxçıvan göycəsi sortundan ibarət bağların salınması üçün olduqca əlverişli ekoloji mühit mövcuddur. Muxtar respublikada meyvəçiliyin davamlı olaraq inkişaf etdirilməsi məqsədilə bioloji və fitosanitar baxımdan təmiz olan, yüksək məhsuldar, keyfiyyətli, müxtəlif vaxtlarda yetişən ayrı-ayrı çəyirdəkli, qoz və giləmeyvələrin aborigen sortları ilə yanaşı, faraş meyvə sortu olan Naxçıvan göycəsinin də iri həcmli plantasiyalarının salınması üçün meyvə-tingçilik təsərrüfatının yaradılması zərurəti ortaya çıxmışdır. Artıq bu istiqamətdə bölgədə praktiki tədbirlər həyata keçirilir. Həmçinin aqrar sektorda kənd təsərrüfatı məhsullarının ixracının artırılmasında, xarici bazarlarda rəqabətədavamlı məhsulların satılmasında mühüm işlər yerinə yetirilir. Muxtar respublikada çoxşaxəli ailə təsərrüfatları, ixtisaslaşdırılmış fermer təsərrüfatları və istehsal sahələrinin yaradılması, toplanılan məhsulun uzun müddət saxlanılması üçün müvafiq soyuducu anbarların tikilməsi, məhsulların beynəlxalq standartlara uyğun qablaşdırılması və ixracının təşkili üçün də geniş imkanlar mövcuddur.

Naxçıvan göycəsi sortu ən çox düzənlik və orta dağlıq ərazilərdə becərilir. Naxçıvan şəhərində, Babək qəsəbəsində, Qaraçuğ, Tumbul, Zeynəddin, Şıxmahmud və başqa kəndlərdə daha tez yetişir. Ağacları 2,5-3,5 metr hündürlükdə olmaqla yazda yarpaq açmamışdan əvvəl çiçəkləyir. Ağaclarda çoxlu çiçək əmələ gəlir. Ancaq bu çiçəklərin əksəriyyəti tozlanmadan sonra tökülür. Meyvələri may ayının ortalarında faraş yeyilməyə başlayır. İlk vaxtlar turş olsa da, getdikcə şirinləşir, iyul ayının axırında və avqust ayının əvvəllərində tam fizioloji yetişkənliyə çatır. Meyvələri kürəşəkilli olmaqla üst və alt hissələrdən basıqdır. Meyvələrdə üst və alt nahiyələri bir basıq şırım birləşdirir. Meyvələrinin qabığı nazikdir, ilk vaxtlar göy rəngdə olur. Ətli hissə qalındır. Hər meyvədə bir kiçik toxum olur. Məhsulu tam yetişdikdə isə ətli hissə daha çox sulanır, şirinləşir və rəngi saralır. Çoxillik ağaclar adətən 10-25 il normal məhsul verir. Hər ağacdan ildə orta hesabla 50-70 kiloqrama qədər məhsul toplanılır. Onu da qeyd edək ki, ağaclar $35^{0}$ C-yə qədər şaxtaya dözümlüdür.

Naxçıvan göycəsi adətən yazda, yayda və payızda müxtəlif calaq üsulları ilə çoxaldılır. Calaqaltı kimi çəyirdəkli meyvələrin tinglərindən istifadə edilir. Calaqetmədə albuxara ağacından istifadə etdikdə meyvələri nisbətən iri və şirin, badam ağacına calaq edildikdə ağacları uzunömürlü olur. Əsl göycə sortunu təkrar calaqetmə yolu ilə əldə etmək olar. Yəni calaq edilmiş göycə sortuna növbəti il yenidən təkrar göycə calaq edilir. Toxumla çoxaldıldıqda yeni alça formaları alınır. Çünki bu sortun toxumları tarixi inkişaf dövründə təbii hibrid genotipinə malik olmuşdur. Toxumla çoxaldıldıqda genotipdəki irsi əlamətlər genetik qanunauyğunluğa əsasən parçalama verir və nəticədə yeni alça formaları meydana çıxır. Qeyd edək ki, bu formalar içərisindən də yeni alça sortları əldə etmək olar. Fərdi təsərrüfatlarda Naxçıvan göycə sortu başqa meyvə sortları ilə birlikdə becərilir. Günsevər bitkidir. Aqrotexniki qulluğa tələbkardır. Çalaq edildikdən iki il sonra məhsul verməyə başlayır. Ağaclarda erkən yazda lazım olan qaydada quru budama aparılmalıdır. Ağacların çətirinə elə forma verilməlidir ki, şah budaq və ətraf budaqlar bir-birindən 50-60 santimetr məsafədə aralı olsun. Yarpaqlama və çiçəkləmə vaxtı çətir daxilinə günəş şüaları düşsün və normal havalanma gedə bilsin.

Naxçıvan göycəsinin meyvə plantasiyası şəklində becərilməsi daha yüksək məhsul əldə olunmasına imkan verir. Belə əkin sistemində ağacların ara məsafəsi 2,5-3 metr, cərgə aralarının 3,0-3,5 metr olması daha məqsədəuyğundur. Naxçıvan göycə sortu göbələk xəstəliklərinə dözümlüdür. Ancaq zərərvericilərə, xüsusilə mənənələrə tez yoluxur. Bu ziyanvericiyə qarşı əgər normal səviyyədə kimyəvi mübarizə aparılmasa, ağaclar hətta növbəti il quruya bilər. Naxçıvan göycəsi sortu normal aqrotexniki becərilmə şəraitində hər il yüksək məhsul vermək xüsusiyyətinə malikdir. Avqust ayının əvvəllərində tam fizioloji yetişmiş meyvələri adətən göycə kompotu, göycə qurusu, göycə lavaşası, göycə turşusu və başqa məhsulların alınması üçün istifadə edilir. Belə məhsulların sənaye miqyasında istehsalının təşkili iqtisadi səmərəli olar. Çünki Naxçıvan göycə sortunun iqtisadi səmərəliliyi yüksəkdir. Hər hektardan maddi gəlir 26,5-30 min manat təşkil edir.

Naxçıvan göycəsi sortu Naxçıvan diyarında tarixən qədimdən becərildiyindən çoxlu variasiyaları meydana gəlmişdir. Belə variasiyalar bir-birindən yetişmə müddətinə, meyvələrinin parametrlərinə, keyfiyyətinə, dadına, şirinliyinə və başqa genetik xüsusiyyətlərinə görə fərqlənir. Bu sort sürətlə digər bölgələrə yayılır.

Artıq Azərbaycanın Abşeron, Gəncə-Qazax, Quba, Göyçay və digər rayonlarında da Naxçıvan göycəsi sortunun meyvə plantasiyaları şəklində becərilməsi işlərinə başlanılmışdır. Dünyanın heç bir yerində yetişdirilməyən bu neməti qorumaq və tanıtmaq biz meyvəçilərin borcudur. Necə ki banan, kivi, ananas dünyada məşhur olan meyvələrdəndir, Naxçıvan göycəsi də bu sırada yer tutmağa layiqdir.

***Varis QULİYEV,***
***aqrar elmləri doktoru***

Günay Bank

Azərbaycan xalqını
Ramazan bayramı
münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır!




Coca-Cola
şirkəti Azərbaycan xalqını
mübarək
Ramazan
bayramı
münasibətilə təbrik edir,
bolluq və firavan həyat arzulayır!
Bayramınız mübarək!

## Energetika naziri vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov aidiyyəti struktur bölmələrin nümayəndələrinin iştirakı ilə Energetika Nazirliyində vətəndaşları qəbul edib. Qəbulda Bakının Qaradağ və Nizami rayonlarından, eləcə də Şirvan şəhərindən olan 10-a yaxın vətəndaş iştirak edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, vətəndaşların müraciətləri elektrik enerjisi təchizatı, elektrik xətlərinin dəyişdirilməsi, qaz sayğaclarının yenilənməsi, tikinti obyektlərinin qaz təchizatı şəbəkəsinə qoşulması, işlə təminat və digər məsələlərlə bağlı olub.

Energetika naziri vətəndaşların müraciətlərini dinləyib, qaldırılan məsələlərin araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verib.

Nazirliyin fəaliyyətinə aid olmayan müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara çatdırılması üçün göstərişlər verilib.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 4-də Xocavənd rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.



Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster aparıblar.

## Siyəzən rayonunda iki nəfərin ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi ilə əlaqədar cinayət işi başlanıb

Mayın 31-də Bakı-Quba avtomobil yolunun Siyəzən rayonu ərazisində sürücü Yaşar Əliyev "Mercedes Benz" markalı 90-NH-489 dövlət nömrə nişanlı avtomobillə hərəkətdə olarkən idarəetməni itirməsi nəticəsində nəqliyyat vasitəsi dərəyə aşıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisə nəticəsində avtomobildə olan sərnişinlərin - Larisa Lapinanın və Mövlüd Əmraslanovun hadisə yerində ölmələri, Nəzrin Hacıbalayevanın isə xəsarət alması faktına görə Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsinə bilavasitə tabe olan Yol-nəqliyyat hadisələrinə dair işlər üzrə İstintaq və Təhqiqat Şöbəsində Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə zəruri ekspertizalar təyin olunub və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

Aparılmış istintaqla hadisənin Yaşar Əliyev tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının kobud surətdə pozularaq törədilməsinə əsaslı şübhələr müəyyən olunub.

Y.Əliyev iyunun 3-də şübhəli şəxs qismində tutulub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Beynəlxalq aləm

## Roma Papası Rumıniyada qaraçılardan üzr istədi



Rumıniyaya səfəri başa çatan Roma Papası Fransisk Alba qəzasının Blaj şəhərində çıxış etmişdir. "Röyter" agentliyinin verdiyi xəbərə görə, papa yüzillər boyu həyata keçirilmiş ayrı-seçkilik və alçaltmaya görə katolik kilsəsi adından qaraçılardan üzr istəmişdir.

Qaraçılar Avropada əsrlər boyu repressiyaya və təqibə məruz qalmışlar. Tarixi xronikalara və sənədlərə əsasən, yüz minlərlə qaraçı Holokost illərində öldürülmüşdür.

Hazırda Avropa qaraçıları əsasən qitənin cənubunda və mərkəzində məskunlaşmışlar. Onlar təkcə Rumıniyada əhalinin təxminən 10 faizini təşkil edirlər. Əksəriyyəti yoxsul vəziyyətdə yaşayan qaraçılar ayrı-seçkiliyi dəf edərək iş yerləri uğrunda mübarizə aparmaq məcburiyyətindədirlər.

## Yeni texnologiya sınaqdan keçirilib




Buynuz təbəqəsinin "Femto LDV Z8" texnologiyasının köməyi ilə köçürülməsi üzrə yeni lazer texnologiyası əlçatan donor orqanlarının sayını iki dəfə artırmağa imkan verəcək.

TASS informasiya agentliyi xəbər verir ki, bu barədə Sauthempton Universitet xəstəxanasının həkimləri bildiriblər. Onların sözlərinə görə, ötən il buynuz təbəqəsinin köçürülməsi yolu ilə 4 min nəfərin görmə qabiliyyəti bərpa edilib. Lakin hələ də donor toxuması çatışmazlığı müşahidə olunur. Lazerin üstünlüyü onun dəqiqliyi və buynuz təbəqəsinin toxumasını iki ultra nazik hissəyə bölməyə imkan verməsidir. Bu, həmin növ əməliyyatın keçirilə biləcəyi pasiyentlərin sayının artmasına səbəb ola bilər.

Buynuz təbəqəsinin belə dəqiq bölünməsi bir donor toxumasının iki pasiyentə köçürülməsinə imkan yaradacaq. Beləliklə, bir göz alması donoru dörd pasiyentin görmə qabiliyyətinin bərpasına kömək edəcək.

Yeni texnologiyanın köməyi ilə buynuz təbəqəsinin köçürülməsi üzrə ilk əməliyyat 36 yaşlı Deniel Heklinqin üzərində aparılıb. Əməliyyat mayın 28-də keçirilib və hazırda həkimlər pasiyentin görmə qabiliyyətinin bərpa olunacağını gözləyirlər. Heklinq buna qədər keratokonus, yəni buynuz təbəqəsinin nazikləşməsi və düzgün forma almaması ilə müşayiət olunan göz xəstəliyindən müalicə alırdı. Bu xəstəlik bulanıq görməyə və işıqdan qorxmaya səbəb olur.

## Sudanda qırğın davam edir

Sudanlı hərbçilər paytaxt Xartumda müxalifətin çadır şəhərciyini dağıdarkən 35 nəfərdən çox adam həlak olmuş, yüzlərlə etirazçı yaralanmışdır. Bu barədə Sudan Həkimləri Komitəsi məlumat vermişdir.



Məlumatda deyilir ki, hərbçilər və silahlı könüllülər xəstəxanaları mühasirəyə aldığından ölənlərin dəqiq sayını müəyyənləşdirmək mümkün deyil. Bundan əlavə, həkimlər və etirazçılar iddia edirlər ki, həlak olanların meyitləri Nil çayına atılır.

## Liviyada 92 qaçqın xilas edildi

Liviyanın sahil mühafizəsi Aralıq dənizində 92 qeyri-leqal miqrantı xilas etmişdir. Hərbi dəniz donanmasının nümayəndəsi Əyyub Qasımın dediyinə görə, "Fetsan" kateri göyərtəsində 92 qeyri-leqal miqrant, o cümlədən 77 kişi, 11 qadın və 4 uşaq olan



rezin qayığı xilas edə bilmişdir.

Qasım bildirmişdir ki, miqrantlar Banqladeşin və Afrikanın müxtəlif ölkələrinin vətəndaşlarıdır. Qaçqınlara tibbi və humanitar yardım göstərildikdən sonra onlar miqrantları qəbul mərkəzlərinə yerləşdirmişlər.

## ABŞ-a gedən 75 miqrant Meksikada saxlanıldı

Meksika hökuməti Honduras, Qvatemala və Salvadordan gəlmiş miqrant qrupunu ölkənin cənubunda saxlamışdır. Heç bir sənədi olmayan 75 qaçqın, o cümlədən uşaqlar avtobusla ABŞ sərhədinə getməyi planlaşdırırmış. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.



Xatırladaq ki, bu günlərdə ABŞ Prezidenti Donald Tramp iyunun 10-dan etibarən Meksikadan gətirilən mallara beşfaizlik rüsumun tətbiq edildiyini bildirmişdir. Mexiko qeyri-leqal miqrasiyanı dayandırmayanadək bu rüsum artmaqda davam edəcək.

ABŞ Prezidenti hesab edir ki, bu addım təkcə sərhəd pozuntularının deyil, həm də Latın Amerikası ölkəsindən narkotik qaçaqmalçılığının qarşısını almağa imkan verəcək.

## Gürcüstan NATO gəmilərinin girişini asanlaşdırır

Gürcüstanda hazırlanan qaydalara əsasən, NATO dövlətləri hərbi donanmalarının gəmilərinin ölkənin ərazi sularına girişi proseduru asanlaşacaq. Bu barədə ölkənin Baş naziri Mamuka Baxtadzeyə istinadən "Qruziya Online" saytı xəbər verir.



Baş nazirin dediyinə görə, Şimali Atlantika blokunun gəmilərinin Gürcüstanın ərazi sularına və limanlarına gəlməsinin intensivliyi artmışdır. Öz növbəsində rəsmi Tbilisi alyansın Qara dənizdə olan gəmilərinə dəstək verməklə regionda sülh və təhlükəsizlik məsələlərinə öz töhfəsini verməyə hazırdır.

Gözlənildiyinə görə, qanun layihəsinin yekun variantı iyunun axırınadək Gürcüstan parlamentinin deputatlarına təqdim olunacaq.

# Azərbaycan Milli Paralimpiya Komitəsi beynəlxalq əlaqələrini genişləndirir

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Avropa Birliyinin ölkəmizdəki nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas ilə görüşüb. AMPK-dan AZƏRTAC-a bildiriblər ki, İ.Rəhimov komitənin fəaliyyəti barədə səfirə geniş məlumat verib. O qeyd edib ki, 1996-cı ildə yaradılan komitənin sıralarında 16 idman növü üzrə minlərlə idmançı birləşib. Bu illərdə komitə böyük bir ictimai hərəkata çevrilib. İdmanla yanaşı, əlillərin cəmiyyətə inteqrasiyası, sosial həyatı və reabilitasiyası ilə bağlı məsələlərə də diqqət ayrılır.



İ.Rəhimov Uşaq Paralimpiya Komitəsi barədə də səfirə məlumat verib. Bildirilib ki, əlilliyi olan uşaqlar bu gün idman vasitəsilə cəmiyyətə inteqrasiya olunur. İndiyədək ölkədə dörd Uşaq Paralimpiya Oyunları keçirilib. Sonuncu oyunlarda Gürcüstandan da paralimpiyaçı uşaqlar dəvət olunublar. Gələcəkdə bu prosesin beynəlxalq tədbirə çevrilməsi istiqamətində işlər görülür.

Səfir K.Yankauskas AMPK-nın fəaliyyətini maraqla qarşılayıb və görülən işlərin əhəmiyyətini vurğulayıb. O deyib ki, Avropa İttifaqı dövlət qurumları və Heydər Əliyev Fondu ilə birgə layihələr həyata keçirib. Avropa İttifaqı ölkəmizdə əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində də layihələr həyata keçirməkdə maraqlıdır. Tvinninq və TAEX proqramları bu cür layihələrin həyata keçirilməsi üçün vasitə ola bilər.

Görüşün sonunda birgə layihələrin həyata keçirilməsi ilə bağlı ilkin razılıq əldə edilib.

AMPK-nın ofisində keçirilən görüşdə komitənin birinci vitse-prezidenti Natiq Qasımov, vitse-prezident İlham Zəkiyev, baş katib Kamal Məmmədov və komitənin əməkdaşları iştirak ediblər.

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - Ağac dirəklərin satın alınması.**

**LOT 2 - İstismar işləri üçün tələb olunan materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 350 (üç yüz əlli) manat (ƏDV xaric) iştirak haqqını**

**LOT 2 - 400 (dörd yüz) manat (ƏDV xaric) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO9101546120042010157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kod: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **15 iyul 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *malgöndərənlərin (podratçıların) mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat məktubu;*
- *şərtlər toplusunda qeyd olunan digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **23 iyul 2019-cu il saat 17:00-a qədər** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **24 iyul 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29.**

***Tender komissiyası***

# "Azərenerji" ASC sistem əhəmiyyətli 17 yarımstansiyanı yenidən qurur

"Azərenerji" ASC Bakı şəhəri və ətraf qəsəbələrin, o cümlədən regionların elektrik enerjisi təchizatını daha da yaxşılaşdırmaq məqsədilə elektrik stansiyaları ilə yanaşı, sistem əhəmiyyətli 220 və 110 kilovoltluq yarımstansiyalarda kompleks tikinti, yenidənqurma və bərpa işləri həyata keçirir.




Sistemtəşkiledici 220 kilovoltluq "Xırdalan", Badamdar qəsəbəsindəki "Müşfiq" yarımstansiyaları, o cümlədən Bakı və ətraf qəsəbələrdə, həmçinin rayonlarda 17 ədəd 110 kilovoltluq yarımstansiya tam yenidən qurulur. Artıq "Zabrat" və Sumqayıtdakı "Sulfanol" yarımstansiyalarında işlər başa çatıb. Digər yarımstansiyalarda aparılan yenidənqurma işləri isə yaxın aylarda yekunlaşacaq.

Qeyd edək ki, enerjisistemdə yarımstansiyaların yenidən qurulması, o cümlədən ifrat yüklənən transformatorların dəyişdirilərək gücünün çoxaldılması, avadanlıqların qızması və qəzaların qarşısının alınması baxımından çox əhəmiyyətlidir. Eyni zamanda qəza rejimində yükün bir yarımstansiyadan digər yarımstansiyanın üzərinə köçürülməsi, itkilərin aradan qaldırılması və ən əsası isə istehlakçıların daha keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi üçün yarımstansiyaların yenidən qurulması olduqca vacibdir.

Bildiririk ki, ötən ilin payızından etibarən həyata keçirilən reabilitasiya proqramı çərçivəsində yenidən qurulan yarımstansiyalardan əlavə, digər yarımstansiyaların transformatorlarının təmir edilməsi, dəyişdirilməsi və yenisi ilə əvəz edilməsi nəticəsində 250 meqavat-amperdən çox güc artırılıb.

***"Azərbaycan"***

## Düşmən Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## "Azərsu" ASC polietilen koruge boruların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288) ala bilərlər.

İştirak haqqı 200 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **16 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **24 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 iyul 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 2019-cu il 17 aprel tarixdə Lənkəran şəhəri Əlillərin Regional Bərpa Mərkəzinin əsaslı təmiri işlərinin satın alınması ilə əlaqədar açıq tender metodu ilə keçirilmiş satınalma müsabiqəsinin qalibi "AG ENGINEERING" MMC olmuşdur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (Palata) Təlim və Maarifləndirmə Mərkəzinin təlim inkişaf strategiyasının hazırlanması xidmətinin satın alınmasına dair keçirilmiş kotirovka sorğusunun nəticələri barədə

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 21.05.2019-cu il tarixdə keçirilmiş "Təlim və Maarifləndirmə Mərkəzinin təlim inkişaf strategiyasının hazırlanması" xidmətinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə Fiziki Şəxs Orduxanova Günel Fərrux qızı 13.800,00 (on üç min səkkiz yüz manat) məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş iştirakçı ilə 31 may 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC reklam mallarının satın alınması üzrə

Təkrar

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Reklam mallarının satın alınması**

**İştirak haqqı - 200 manat**

**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN:9900006111**
**M/H:AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T:AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 iyul 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 iyul 2019-cu il saat 15:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları Eldar Əliyevə anası

**LYUDMİLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Allahverdi Xudaverdiyevə atası

**ALLAHQULU XUDAVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universitetinin rektorluğu Diferensial və inteqral tənliklər kafedrasının dosenti Araz Fərəcova həyat yoldaşı

**FƏRƏH XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və aparat işçiləri Xızı rayon komitəsinin sədri

**NƏBİ BAXIŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və aparat işçiləri "Ülfət" qəzetinin baş redaktorunun müavini Bəyalı Rzayevə həyat yoldaşı

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9054
Sifariş 1863
Qiyməti 40 qəpik